Xalqın qəzeti!

# Xalq qəzeti

№ 175 (30291) 18 avqust 2023-cü il, cümə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az

## Günün sözü

### Prezident İlham Əliyev:

**İndi biz separatizmə qarşı mübarizə aparmaqda Ukraynaya kömək etmək üçün Avropa və Qərbin necə birləşdiyini görürük. Nəyə görə Gürcüstanın separatçı regionları ilə bağlı yanaşması Qərb cəmiyyəti və siyasətçiləri tərəfindən tamamilə anlaşılır, lakin bizim eyni mənşədən olan separatizmə son qoymaq üçün legitim istəyimiz sual altına alınır?**

# BMT TŞ-də növbəti qələbəmiz



**Fiasko. Ermənistanın BMT-yə Qarabağda humanitar böhran iddialı müraciətinə əsasən avqustun 16-da bu qurumun Təhlükəsizlik Şurasında keçirilmiş müzakirənin nəticəsini məhz bu cür qiymətləndirmək mümkündür. Bəli, nəinki İrəvanın, eləcə də xaricdəki ermənipərəst qüvvələrin gözləntiləri puç oldu.**

İclasda Qarabağda humanitar böhran, Laçın–Xankəndi yolunun açılması, yəni, faktiki olaraq ölkəmizin şərti sərhəddə qurduğu nəzarət-buraxılış məntəqəsinin əhəmiyyətsizliyinin göstərilməsinə dair hansısa müraciət, qətnamə, çağırış, yaxud bu qəbildən digər sənəd qəbul edilmədi. Ölkələrin nümayəndələri necə deyərlər, yığıldılar, danışdılar və dağılışdılar. Görünür, Ermənistan üçün edə biləcəkləri ən böyük şey elə budur. Bəs, BMT fiaskosundan sonra növbədə nə var? Bu barədə yazımızın sonunda söz açacağıq. Hələlik isə BMT TŞ-nin erməni məşəqqətinə çevrilmiş 16 avqust iclası ilə bağlı bəzi məqamları diqqətə çatdıraq.

***

İlk növbədə onu bildirək ki, Azərbaycan BMT müstəvisində Ermənistana qarşı növbəti diplomatik qələbə qazandı. Mövcud xüsusda ölkəmizin qurumdakı daimi nümayəndəsi Yaşar Əliyevin əsl diplomat bacarığı göstərdiyini vurğulamalıyıq. Onun iclasdakı çıxışı möhtəşəm idi – faktoloji, məntiqi cəhətdən əsaslandırılmış, zəngin arqumental bazalı və ardıcıl. Nümayəndəmiz ölkəmizin prinsipial mövqeyini, qətiyyətini bir daha ortaya qoydu.

(ardı 3-cü səhifədə)



## İndoneziya Respublikasının Prezidenti Zati-aliləri cənab Coko Vidodoya

**Hörmətli cənab Prezident,**

İndoneziya Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizə və Sizin simanızda dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

İnanıram ki, Azərbaycan-İndoneziya münasibətlərinin dostluq məcrasında inkişafı, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə, xüsusilə də Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində səmərəli əməkdaşlığımızın davam etdirilməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Bu bayram günündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost İndoneziya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 avqust 2023-cü il**

## Hayların sözü qurtardı, hay-küyü qaldı

**Xarici havadarlarının təhriki və dəstəyi ilə Bakının əleyhinə "tutarlı sənəd" qəbul etmək məqsədilə başlatdığı "humanitar böhran" və "aclıq" şousu İrəvanın özünə qarşı çevrildi. Artıq bunu tam qətiyyətlə və birmənalı şəkildə deyə bilərik. Rəsmi İrəvan Qarabağ ermənilərinin "məhvolma təhlükəsini" BMT Təhlükəsizlik Şurasının tribunasına çıxarmağı bacarsa da, Azərbaycanın bu mötəbər beynəlxalq qurumdakı təmsilçisi ekstern iclasa toplaşanları, həmçinin hayların özlərini danılmaz fakt və sübutlar qarşısında qoydu. Bu kontekstdə bir həqiqəti də gözdən qaçıra bilmərik. Debatlara evsahibliyi edən fövqəldövlətin erməni fitnəkarlığına uymamasının özü mühüm nəticə sayıla bilər. Bununla da, Nikol Paşinyanın və onun dəstəkçilərinin Nyu-Yorkda şou yaratmaq arzuları elə ürəklərində qaldı.**

(ardı 4-cü səhifədə)

# Azərbaycan "yaşıl enerji" ölkəsinə çevrilir

Səhifə ⇨ 7

## Büdcə gəlirləri 7 ayda 15,5 milyard manata çatıb




Səhifə ⇨ 7

## "Salam olsun Qarabağa, Şuşaya!"

### *Türkiyə siyasətçiləri Azərbaycanın mövqeyini israrla müdafiə edirlər*

**Biz cənab Prezident Rəcəb Tayyib Ərdoğan başda olmaqla türkiyəli siyasətçilərin, diplomatların, ictimai xadimlərin və ziyalıların Azərbaycanın haqq işini dəstəkləyən fikirlərini çox eşitmişik. Hətta, bəzən elə olur ki, dünya ictimaiyyəti qardaş ölkə təmsilçilərinin bir neçə gün ard-arda müxtəlif beynəlxalq tribunalardan rəsmi Bakının mövqeyini dəstəkləyən bəyanatına şahidlik edir. Təbii ki, bütün bunlar səmimi şəkildə ifadə olunan siyasi-diplomatik dəstək əlamətidir.**

Ancaq mənim fikrimcə, Türkiyənin səhiyyə naziri Fəxrəddin Kocanın üç gün öncə Səmərqənddə keçirilən İkinci Türk dünyası tibb qurultayının tribunasından səsləndirdiyi "Salam olsun Qarabağa, Şuşaya!" deyimində heç bir siyasi-diplomatik çalar yox idi. Bu fakt, sadəcə olaraq, Azərbaycanın uğurlarına sevinən doğma insanın qəlbindən qopan istək – işğaldan azad edilmiş türk torpaqlarına Allahın salamını göndərmək arzusu idi. Cənab nazir əlavə etdi ki, Türk Dövlətləri Təşkilatı daxilində qardaşlığın səmimiyyəti bu il fevralın 6-da Türkiyədə baş verən "dəhşətli zəlzələ" zamanı da hiss edilmişdi.

(ardı 3-cü səhifədə)

## Arazın o tayından çəkilmiş "qırmızı xətlər"



Səhifə ⇨ 9

## Rusiya oliqarxları niyə müharibəni pisləmirlər?



Səhifə ⇨ 11

## Vardanyan üçün "elegiya"



Səhifə ⇨ 8



## Bakıda "Paris-2024"ə ilk lisenziyalar qazanılıb

Səhifə ⇨ 11

## Həqiqətin gözünə dik baxa bilməyənlər

Səhifə ⇨ 4




## Lənkəranlı Lenin mükafatı laureatı



Səhifə ⇨ 10

## "Koçaryan, Ohanyan, Nabokix, Çitçyan kimi Xocalı qatilləri axtarışdadır"

Səhifə ⇨ 8



## Naxçıvanın hidroloji turizm abidələri

Səhifə ⇨ 10



# Qabon Respublikasının Prezidenti Zati-aliləri cənab Ali Bonqo Ondimbaya

**Hörmətli cənab Prezident,**

Qabon Respublikasının milli bayramı – Müstəqillik Günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, birgə səylərimizlə Azərbaycan-Qabon dostluq əlaqələri daha da inkişaf edəcək, həm ikitərəfli, həm də çoxtərəfli əsasda əməkdaşlığımız bundan sonra da uğurla davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, dost Qabon xalqına əmin-amanlıq və rifah diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 avqust 2023-cü il**

# B.M.Ələkbərova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Polkovnik Babək Mürsəl oğlu Ələkbərova "general-mayor" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2023-cü il**

# Z.A.Zeynalova "general-mayor" ali hərbi rütbəsinin verilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq qərara alıram:

Polkovnik Zaur Ağaqardaş oğlu Zeynalova "general-mayor" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2023-cü il**

# Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfirinin diplomatik fəaliyyəti bitib

**Xarici işlər naziri Ceyhun Bayramov dünən Səudiyyə Ərəbistanı Krallığının ölkəmizdəki səfiri Haməd bin Abdullah bin Səud bin Xudeyri diplomatik fəaliyyətinin bitməsi münasibətilə qəbul edib.**



Nazir səfir Haməd bin Abdullah bin Səud bin Xudeyrə fəaliyyəti dövründə Azərbaycan-Səudiyyə Ərəbistanı münasibətlərinin inkişafına verdiyi töhfəyə, peşəkar fəaliyyətə görə dərin minnətdarlığını bildirib və ona gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşdə siyasi, iqtisadi, enerji, humanitar, turizm sahələri üzrə ikitərəfli əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri, beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlığı Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində əməkdaşlıq məsələləri müzakirə olunub.

İki ölkə arasında əlaqələrin inkişafından və son zamanlar həyata keçirilən işlərdən bəhs edən səfir Azərbaycandakı fəaliyyəti dövründə ona göstərilmiş dostluq və əməkdaşlıq münasibətlərinə görə minnətdarlığını bildirib.

***"Xalq qəzeti"***

# Xocavənddə erməni silahlılarının təxribat cəhdinin qarşısı alınıb

**Avqustun 17-si saat 11:55 radələrində Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələri Azərbaycan Ordusunun Xocavənd rayonu istiqamətində yerləşən mövqelərinin qarşısında kənd təsərrüfatı işləri adı altında atəş dəstəyi ilə uzunmüddətli fortifikasiya qurğularını quraşdırmağa cəhd göstəriblər.**



Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib ki, bölmələrimizin gördüyü təxirəsalınmaz tədbirlər nəticəsində aparılan işlər dərhal dayandırılıb və bu işlərə atəş dəstəyi verən qanunsuz erməni silahlı birləşmələrinin mövqeləri susdurulub.

# MN: Ordumuz Arazdəyən istiqamətində atəş açmayıb

**Avqustun 17-si saat 21:15-dən 21:30-dək Azərbaycan Ordusunun bölmələri tərəfindən guya Ermənistan silahlı qüvvələrinin Arazdəyən yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərinin atəşə tutulması barədə qarşı tərəfin yaydığı məlumat tamamilə yalandır.**

Bu barədə Müdafiə Nazirliyinin mətbuat xidmətindən bildirilib.

"Ermənistan müdafiə nazirliyinin yaydığı bu məlumatı qəti surətdə təkzib edirik", - məlumatda qeyd edilib.

# Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası dövlət sərhədinin mühafizəsinin təmin edilməsində, ölkənin ərazi bütövlüyünün qorunub saxlanılmasında və sərhəd mühafizə orqanları qarşısında qoyulmuş tapşırıqların yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

### "Azərbaycan Bayrağı" ordeni ilə

Şirinzadə Firuz Böyükağa oğlu – general-leytenant
Mustafayev İlkin Aydın oğlu – polkovnik-leytenant
Səfərov Elvin Sərraf oğlu – polkovnik-leytenant
Quliyev Anar Sədi oğlu – kapitan

### 2-ci dərəcəli "Rəşadət" ordeni ilə

Yunisli Ziya Rauf oğlu – kapitan

### 3-cü dərəcəli "Rəşadət" ordeni ilə

Hüseynov Naseh İbrahim oğlu – polkovnik
Nağıyev Murad Tofiq oğlu – polkovnik

### 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

İbrahimov Elçin Zaur oğlu – general-leytenant
Abuzərli Natiq Zahid oğlu – general-mayor

### 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə

Əliyev Rəsul Rasim oğlu – polkovnik
Nağıyev Məhəmməd Biladon oğlu – polkovnik
Rəhmanov Elşən Sabir oğlu – polkovnik
Abdullayev Anar Arif oğlu – polkovnik-leytenant
Səfiyev Mübariz Məhəmməd oğlu – mayor

### "Vətən uğrunda" medalı ilə

Dünyamalıyev Ağamirzə Bəhman oğlu – polkovnik
Həbibov Elnur Arif oğlu – polkovnik
Mirzəyev Mirzə Adil oğlu – polkovnik
Baxşıyev Ravil Sabir oğlu – polkovnik-leytenant
Umudov Xəyyam Ehsan oğlu – 2-ci dərəcəli kapitan
Rzayev Emin Salam oğlu – kapitan

### "İgidliyə görə" medalı ilə

Pirimov Ceyhun Ələkbər oğlu – tibb xidməti leytenantı

### "Hərbi xidmətlərə görə" medalı ilə

Abbasov Aftandil Qabil oğlu – polkovnik-leytenant
Abdullayev Ruslan Mehman oğlu – polkovnik-leytenant
Əkbərov Yusif Mürsəl oğlu – polkovnik-leytenant
Əzimova Gülnar Bəhram qızı – polkovnik-leytenant
Quliyev Elməddin Çingiz oğlu – polkovnik-leytenant
Məmmədli Rəhman Bayram oğlu – polkovnik-leytenant
Nağıyev Yaşar Tofiq oğlu – polkovnik-leytenant
Sadiqov İsmayıl Rəfael oğlu – polkovnik-leytenant
Əliyev Vəfadar Çingiz oğlu – mayor
Lazımzadə Azər Xudaverdi oğlu – mayor
Mirzəyev Elçin Cavanşir oğlu – mayor
Müslümov Elçin Qəşəm oğlu – mayor
Məmmədov Cavid Yusif oğlu – kapitan
Niftullayev Tural Calal oğlu – kapitan
Salahov Rəşad Maarif oğlu – kapitan
Səmədov Etibar İlqar oğlu – kapitan
Əliyev Əlizadə Eyyub oğlu – baş leytenant
Hüseynov Şamxal Əli oğlu – baş leytenant
Qarayev Toğrul Əhməd oğlu – baş leytenant
Quliyev Rəvan Əyar oğlu – baş leytenant
Nəcəfov Samir Əli oğlu – baş leytenant
Ramazanov Elvin Allahverdi oğlu – baş leytenant
Abdullayev Vüsal Fikrət oğlu – baş gizir
Cəlilova Dilşad Həsən qızı – baş gizir
Xanbutayeva Zabitə Firudin qızı – baş gizir
Mikayılova Şəlalə Elman qızı – baş gizir
İsaqzadə İlkin Yasin oğlu – gizir
Zeynalov Məqsəd Əsəd oğlu – kiçik gizir
Mənafov Emil Nazim oğlu – kiçik çavuş
Hüseynov Elnur Azər oğlu – əsgər
Hüseynov Ruslan Vidadi oğlu – əsgər
Novruzlu Nihad Elburus oğlu – əsgər

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2023-cü il**

# Kəlbəcər şəhərində tikinti, təmir və bərpa işləri üçün maliyyə vəsaiti ayrılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Kəlbəcər şəhərində tikinti, təmir və bərpa işlərinin layihələndirilməsi və həyata keçirilməsi məqsədilə Azərbaycan Respublikasının 2023-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan "Şərqi Zəngəzur İqtisadi Rayonunda 2 saylı Bərpa, Tikinti və İdarəetmə Xidməti" publik hüquqi şəxsə 80,0 (səksən) milyon manat vəsait ayrılsın.

**2.** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 17 avqust 2023-cü il**

# XİN-in BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələrə dair bəyanatı

**Xarici İşlər Nazirliyi avqustun 16-da BMT Təhlükəsizlik Şurasında aparılmış müzakirələrə dair bəyanat yayıb. Bəyanatda deyilir:**



"Ermənistanın BMT Təhlükəsizlik Şurasından növbəti dəfə öz şantaj kampaniyası üçün istifadə etmək cəhdi uğursuzluğa düçar oldu. Ermənistanın sözügedən ali orqanı bu cür manipulyasiya və istismar etmək səyləri postmünaqişə dövründə normallaşma gündəliyinin irəli aparılması baxımından qeyri-məhsuldar olmaqla yanaşı, son dərəcə destruktivdir.

Azərbaycan Ermənistanın məsələlərin həll yolunun konstruktiv qarşılıqlı fəaliyyət, habelə beynəlxalq hüququn normalarının və bu çərçivədə götürülmüş öhdəliklərin vicdanla yerinə yetirilməsindən keçdiyini nəhayət ki, anlayacağına ümid edir. BMT Təhlükəsizlik Şurasının çoxsaylı üzvləri tərəfindən vurğulandığı kimi, regionda sülh və sabitliyin əsası həm sözdə, həm də əməldə suverenliyin və ərazi bütövlüyünün tanınmasıdır.

BMT Təhlükəsizlik Şurasının üzvü olan bir neçə dövlətin, eləcə də Türkiyənin Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin ehtiyaclarını ödəmək üçün məhsulların çatdırılması ilə əlaqədar xüsusilə Ağdam-Xankəndi yolu olmaqla, Azərbaycan tərəfindən təklif olunan bütün marşrutların fəaliyyət göstərməsi ilə bağlı səmimi dialoq və vicdanlı qarşılıqlı fəaliyyətin zəruriliyi barədə verilən bəyanatları yüksək qiymətləndiririk.

Müzakirələr Azərbaycanın Ağdam-Xankəndi yolundan istifadə təklifinin beynəlxalq ictimaiyyət tərəfindən müsbət qarşılandığını və yüklərin Azərbaycanın Qarabağ bölgəsinə qanuni və şəffaf şəkildə çatdırılmasını təmin etmək üçün Ermənistanın yaratdığı maneələrin qəti şəkildə aradan qaldırılmasının labüdlüyünü bir daha göstərdi.

Bundan başqa, bəzi üzv dövlətlər tərəfindən Azərbaycanın legitim təhlükəsizlik narahatlıqlarının etirafı regionda müəyyən çağırışların aradan qaldırılması istiqamətində perspektivli addımdır.

Azərbaycanın müzakirələrdə qeyd etdiyi kimi, ölkəmiz Ermənistana iki ölkənin bir-birinin suverenliyinin, ərazi bütövlüyünün və sərhədlərinin toxunulmazlığının qarşılıqlı tanınması və hörmət əsasında sülh təklif edib. Digər tərəfdən, Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan Konstitusiyasında nəzərdə tutulmuş, habelə Azərbaycanın tərəfdar çıxdığı insan hüquqları üzrə bütün müvafiq beynəlxalq mexanizmlərə uyğun olaraq, bütün hüquq və azadlıqlarını təmin etməklə bərabərhüquqlu vətəndaş kimi reinteqrasiya siyasətini aparır. Hər iki istiqamətə sadiq olduğumuz kimi, suverenliyimizi və ərazi bütövlüyümüzü BMT Nizamnaməsində və beynəlxalq hüquqda təsbit edilmiş bütün qanuni vasitələrlə qorumaqda da əzmliyik.

Azərbaycan normallaşma gündəliyinin irəli aparılmasında həqiqətən maraqlı olan və bununla da regionda çoxdan gözlənilən sülh və sabitliyə nail olmaq üçün öz töhfəsini vermək istəyən, habelə bu istiqamətdə müvəffəq olan bütün tərəflərlə konstruktiv qarşılıqlı fəaliyyətə sadiqdir".

# BMT TŞ-də növbəti qələbəmiz

## yaxud Ermənistan üçün dramatik fiasko

(əvvəli 1-ci səhifədə)



İkincisi, prinsip etibarilə ABŞ, Türkiyə, Rusiya, Çin, Yaponiya nümayəndələrinin müzakirədəki mövqeyini İrəvan üçün ciddi siqnal saymaq mümkündür. Bu çıxışlar göstərdi ki, Ermənistanın ətrafında böyük ajiotaj qaldırdığı Qarabağda humanitar böhran şousuna birmənalı yanaşma yoxdur. Dünyanın aparıcı qütbləri prinsip etibarilə Azərbaycanın ərazi bütövlüyü prizmasından çıxış edirlər. Hətta, bəzi məqamlarda ABŞ və Rusiya nümayəndələrinin nitqlərində İrəvanın yapışa biləcəyi detallar olsa da, Azərbaycanın qəti mövqeyi ilə hesablaşma var. Türkiyənin münasibəti birbaşa ölkəmizin xeyrinə idisə, digər dövlətlər təxminən bunu dedilər: biz gücünün haqqını tanıyırıq. Ən pis halda gücünün haqqının tapdanmasına razı deyilik. Güclü isə Azərbaycandır. Azərbaycan həm də ona görə güclüdür ki, onun mövqeyi beynəlxalq hüququn prinsiplərinə əsaslanır.

Üçüncü məqam. Bu yerdə Fransadan danışaq. Ölkə gözlənildiyi kimi, BMT tribunasında qatı ermənipərəst mövqe tutdu. Onun nümayəndəsinin həyasızlığa köklənmiş çıxışında aşkar şəkildə göründü ki, Laçın–Xankəndi yolunun açılması erməni avantürizminin Qarabağ iddiasının davamı olaraq nəzərdə tutulur. Yəni, əsas məsələ heç də humanitar böhran deyil. Başlıca hədəf nəyin bahasına olursa-olsun, sözügedən yolun açılmasıdır. Yol isə açılmayacaq. Həm də ona görə ki, orada Azərbaycanın sərhəd məntəqəsi var. Sərhədi keçməyin şərtlərinə əməl olunması mütləqdir. BMT TŞ-nin iclasının yazılmamış, subliminal şəkildə ortaya çıxan qərarı məhz budur. Ermənistan rəhbərliyi həmin qərarı görmək və oxumaq üçün gözlərini dörd açmalıdır. Dünyaya dar pəncərədən baxmağı tərgitməlidir.

Dördüncüsü. Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın BMT TŞ-nin iclasındakı çıxışı ağlaşma idi. Erməni nazir nitqində Qarabağ ermənilərini və böhran kimi saxta məntiqindəki humanizm imitasiyasını beynəlxalq hüququn prinsiplərindən önə çıxarmaq istədi, lakin bacarmadı. Bu isə o deməkdir ki, İrəvan, necə deyərlər, torbadan pişiyi çıxara bilmədi. Əvəzində havaya sabun köpüyü buraxdı.

Beşincisi. Ayrıca Ermənistan iqtidarının, erməniperəst dairələrin leksikonuna daxil olmuş Qarabağ ermənilərinə qarşı soyqırımı iddiası iflasa uğradı. Dünya birliyi İrəvana təxminən belə bir cavab verdi: Qarabağda soyqırımının heç "s" hərfi belə yoxdur. Deməli, erməni pornoulduz Kim Kardaşyanın professor Erik İsraelyanla birgə dünyanın ictimai rəyinə sırımaq istədiyi Luis Moreno Okampoya məxsus "hesabat" da mənasız kağız parçasına çevrildi.

Qeyd edək ki, BMT-nin Beynəlxalq Cinayət Məhkəməsinin baş prokuroru olmuş, hazırda isə beynəlxalq hüquq üzrə ekspert kimi fəaliyyət göstərən, qalmaqallı keçmişə, qlobal kriminal-cinayətkar dairələrlə əlaqələrə malik argentinalı hüquqşünas Okampo "Ekspert rəyi: 2023-cü ildə ermənilərə qarşı soyqırımı" adlı hesabat hazırlamış və orada yazmışdı ki, Qarabağda, guya, humanitar böhran yaşanır və bu, ermənilərə qarşı soyqırımıdır. Yeri gəlmişkən, BMT-dəki daimi nümayəndəmiz Y.Əliyev də çıxışında erməniperəst dairələrin əsas kimi götürdüyü Okampo hesabatını, sözün əsl mənasında, faş etdi.

Altıncı məqam BMT müstəvisində avqustun 16-da keçirilmiş müzakirə gedişində məlum oldu ki, bu qurumun Beynəlxalq Ədalət Məhkəməsinin aylar öncə qəbul etdiyi və Ermənistanın Laçın yolunun açılması istiqamətində siyasi manipulyasiya predmetinə çevirdiyi qərar artıq əhəmiyyətə malik deyil. Sənəd Qarabağda erməni avantürizminin davamı baxımından əsas kimi götürülə bilməz.

Yedincisi. BMT-dəki müzakirə göstərdi ki, rəsmi İrəvanın və erməni havadarlarının Laçın dəhlizi məntiqinə qarşı Azərbaycanın irəli sürdüyü Ağdam–Xankəndi yolundan istifadə bölgənin erməni əhalisinin təminatı baxımından mühüm vasitə kimi düşüncələrdə möhkəmlənib. İndiki halda bu möhkəmlənmə Azərbaycanın adına böyük uğur kimi qiymətləndirilə bilər.

Səkkizinci məqam. İclasda nümayəndələri çıxış edən ölkələrin mövqelərindən gələn qənaət budur ki, Qarabağdakı erməni əhalinin blokadada qalmasına dair rəsmi İrəvanın qaldırdığı hay-küy keçərli deyil. Başqa sözlə desək, dünya əksəriyyət etibarilə blokada məntiqini qəbul etmir. Deməli, erməniperəstlərin mövcud xüsusda yaratdıqları kütləvilik ab-havası tam əhəmiyyətsiz və mənasızdır, reallıqla uzlaşmır.

Doqquzuncusu. BMT TŞ-dəki müzakirənin yekunu göstərir ki, beynəlxalq aləm Azərbaycan-Ermənistan danışıqlarının hazırkı trayektoriyasını dəstəkləməkdədir. Deməli, həm də Cənubi Qafqazda sülh gündəliyi əsas götürülür. O gündəlik ki, onu diktə edən tərəf Azərbaycandır. İrəvanın bundan yayınmaq üçün arqumentləri nəzərə alınmır. Əslində, avqustun 16-da dünya Ermənistana təxminən, bunu da demiş oldu: Azərbaycanla yola get, onun dediyinə qulaq as.

Onuncu məqam. Təzadlı epizodlar da yox deyil. Məsələn, Avropa Birliyinin BMT-dəki nümayəndəsi çıxışında Ağdam-Xankəndi yolunun Laçın yoluna alternativ ola bilməyəcəyini bildirir, sonra beynəlxalq hüququn prinsiplərindən danışır və deyir ki, tərəflər bir-birilərinin ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşmalıdırlar. Onun ərazi bütövlüyü və suverenliklə bağlı söylədikləri şərti sərhəddəki məntəqəmizi leqallaşdırmaqla yanaşı, Laçın yolunun alternativsizliyi iddiasını heçə endirir. Aydındır ki, AB ermənilərin təəssübünü çəkir, ancaq bunun üçün qurumun özünü biabır etməsinə ehtiyac yoxdur. Yəni, nümayəndə iclasa bir qədər hazırlaşıb gəlsəydi, daha yaxşı olardı. Onun qarşısındakı kağız parçasında yazılan tezislərdən xəbəri yox idi, hazır mətni çətinliklə oxuyurdu.

***

On birincisi. BMT TŞ-dəki müzakirənin yekunu Fransa-Ermənistan tandeminin beynəlxalq diplomatiya arenasındakı növbəti acınacaqlı məğlubiyyətidir. Son vaxtlar belə məğlubiyyətlərin sayı artmaqdadır. Yada salaq ki, ötən ilin sentyabrında və dekabrında da bu "tandemin" Laçın yolu və Azərbaycan–Ermənistan sərhədindəki gərginliklə bağlı BMT-də təşkil etdiyi müzakirə tam fiasko ilə nəticələnmişdi.

İrəvanı başa düşdük, belə biabırçılıqlarla üzləşməyə öyrəncəlidir. Bu mənada dünya liderliyinə can atan, özünü demokratiyanın beşiyi sayan Fransanın düşdüyü durum, həqiqətən, təəssüf doğurmaqdadır. Ölkə nüfuzunu erməni millətçiliyi naminə xərcləyib bitirmək üzrədir. Onun diplomatiyasının ard-arda məğlubiyyəti müasir dövrdə görünməmiş hadisədir. Rəsmi Paris nəticə çıxarmalıdır, ya da geosiyasətdən danışmamalı, qaxılıb öz sərhədləri daxilinə sığınmalıdır.

On ikinci məqam. Bəli, BMT TŞ-dəki müzakirənin nəticəsi Ermənistanın fiaskosu kimi, Azərbaycanın diplomatik qələbəsidir. Bu, öz yerində. Ancaq bir daha sübut olunur ki, bu sayaq erməni ssenarilərinin BMT kimi mötəbər tribunada səhnəyə qoyulmasına ehtiyac yoxdur. Yəni, kimlərinsə faciə kimi planlaşdırdığı mənzərənin gülüşə çevrilməsi qurumun nüfuzuna da xələl gətirməkdədir. Çünki ortada ələhəzrət beynəlxalq hüquq və onun prinsipləri var. BMT gərək belə müzakirələri keçirib diletant təsir bağışlamasın. Hər halda, məqsəd Ermənistana və ermənilərə yaxşılıq etməkdirsə, başqa metodlar da tapmaq mümkündür. Onsuz da dünya erməniliyi BMT-nin jestini anlamadı. Anlaya da bilməz. Əksinə, quruma qarşı ittihamlar güclənib.

İndi isə gələk yazının sonunda diqqətə çatdıracağımızı bildirdiyimiz mətləbin üzərinə. Söhbət bundan sonra Cənubi Qafqaz siyasi akvatoriyasındakı durumun necə olacağı ilə bağlı məsələdən gedir. Nəzərə alaq ki, Ermənistan diplomatik müstəvidə sonuncu gülləsini BMT TŞ-nin iclasında atdı. Onun arsenalında indi heç nə yoxdur. Ancaq ölkənin, yəni erməni separatçılarının Qarabağda hazırda doqquz 9K33 Osa HHM-nin, bir Repellent-1 raket əleyinə müdafiə sisteminin olduğu təsdiqlənir. Xocalı rayonu ərazisində isə iki S-125 HHM yerləşdirilib və aktivdir. Həmçinin, Ermənistanın silahlı qüvvələrinə məxsus əlavə altı ədəd 9K33 OSA yer-hava raket kompleksi də Xocalı rayonu ərazisindədir.

Bu siyahını elə-beləcən diqqətə çatdırmadıq. Bir halda ki, Ermənistanın diplomatik müstəvidəki fəaliyyəti nəticə vermir, üstəlik, erməni avantürizmi özünün həyasızlıq elementlərini var gücü ilə işə salıb, o zaman onun növbəti addımının müharibə olacağını düşünmək mümkündür. Eyni zamanda, Azərbaycanın Ermənistan daxilindəki revanşist-şovinist baxışları nəzərə alıb yuxarıdakı hərbi vasitələri neytrallaşdırması məntiqidir.

Əlbəttə, biz belə savaş vəziyyətinin yaranmasını istəməzdik. Ona görə də İrəvanın mənasız gedişlərdən, manipulyasiyalardan uzaq durub sülh yoluna qayıtmasını, Azərbaycanın şərtlərini qəbul etməsini arzulayırıq. Çünki bu şərtlərə alternativ yoxdur, bölgədəki reallıqları dəyişmək cəhdi uğursuzluğa məhkumdur. Hər cür erməniperəst fəallığa baxmayaraq, Ermənistanın BMT-nin Təhlükəsizlik Şurasındakı fiaskosu da bunu tam təsdiqlədi.

**Ə.CAHANGİROĞLU,**
***"Xalq qəzeti"***

---

# "Salam olsun Qarabağa, Şuşaya!"

(əvvəli 1-ci səhifədə)

***İkinci Qarabağ müharibəsi zamanı Türkiyə, onun rəhbərliyi və xalqı ilk gündən, ilk saatlardan bizimlə çiyin-çiyinə dayanmışdı. O zaman Prezident Ərdoğanın Qarabağ müharibəsinin ilk saatlarında verdiyi "Azərbaycan yalnız deyil!" bəyanatı, bizim üçün çox böyük bir dəstək idi. Bütün 44 gün ərzində biz həmin o mənəvi dəstəyi qardaşlarımızdan hiss etdik. Prezident Ərdoğan bir neçə dəfə ictimai şəkildə Türkiyənin mövqeyini bəyan etdi və digər dövlət rəsmiləri də bu məsələ ilə bağlı fikirlərini bildirdilər. Bu, bizim üçün çox böyük mənəvi və siyasi dəstək idi.***

**Azərbaycan Prezidenti İlham Əliyevin "Dördüncü Sənaye İnqilabı dövründə Yeni Media" mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimindəki çıxışından**

**14 iyul 2023-cü il**



Səhiyyə nazirinin bu səmimiyyətindən təxminən, bir ay əvvəl – iyulun 7-də NATO-nun Vilnüsdə keçirilən sammitində də ən ali səviyyəli Türkiyə rəsmisinin Azərbaycan, Qarabağ haqqında fikirlərini eşitmişdik. Cənab Prezident Rəcəb Tayyib Ərdoğan həmin sammitdəki çıxışında Qarabağ haqqında verilən sualı cavablandırarkən demişdi ki, 2025-ci ildə Rusiya bu ərazini tərk edəcək: "Burada razılaşma ondan ibarətdir ki, 2025-ci ilə qədər Rusiya sülhməramlıları təyin olunmuş yerlərdə qalacaq. 2025-ci ildə Rusiya ərazini tərk edəcək. Mən də Rusiyanın bu razılaşmaya sadiq qalacağına inanıram. Qardaşım İlham Əliyev də məsələni diqqətlə izləyir".

Türkiyə rəsmilərinin Azərbaycan reallıqları barədə söylədikləri növbəti kəsərli arqumentləri isə qardaş ölkənin BMT-dəki daimi nümayəndəsi Sədat Önaldan eşitdik. Türkiyə diplomatı avqustun 16-da BMT Təhlükəsizlik Şurasında Ermənistanın yalvarışı, minnəti ilə aparılmış müzakirələrdə demişdir ki, regionda sabitlik və təhlükəsizlikdə bilavasitə maraqlı olan ölkə kimi, həmçinin təşəbbüslərdə aktiv iştirak edən Türkiyə Ermənistanın BMT Təhlükəsizlik Şurası kimi beynəlxalq meydandan Laçın dəhlizi mövzusu daxil olmaqla siyasi motivli ittihamları bəyan etmək üçün istifadə cəhdlərindən narahatdır.

Türkiyəli diplomatın fikrincə, problemi kontekstə uyğun həll etməliyik: "İlk növbədə, Azərbaycanın qanuni maraqlarını nəzərə almaq lazımdır. Həmçinin Azərbaycanın suverenlik hüququna hörmət etmək lazımdır. Azərbaycan artıq Laçın dəhlizi, Laçın yolunun sui-istifadəsindən, o cümlədən qanunsuz silahlı birləşmələrin, silah-sursatın, piyada əleyhinə minaların daşınmasından narahatlığını bildirib. Lakin Azərbaycanın bu narahatlıqları nəzərə alınmayıb".

Bəli, Türkiyə siyasətçiləri istənilən məqamda, bütün proseslərdə Azərbaycanın yanında olduqlarını sübut ediblər. Ən başlıcası, qardaş ölkə rəsmiləri dəfələrlə bəyan ediblər ki, Azərbaycanın haqq işini dəstəkləməyi şərəf işi sayırlar. Yeri gəlmişkən, həmin ifadəni Azərbaycan Prezidenti İlham Əliyev də bir neçə dəfə dilə gətirmişdir.

Yadımdadır, bu ilin fevralında qardaş ölkədə zəlzələ baş verəndən sonra – fevralın 8-də Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin ölkəmizdəki səfirliyində olmuş, baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar matəm kitabına ürək sözlərini yazmışdı:

"Əminəm ki, Türkiyə bu acı sınaqdan da şərəflə çıxacaq, bunu da aşacaq. Ancaq bu, inanılmaz dərəcədə böyük faciədir. Hər bir qurtarılan can elə bil ki, bizə bir dünyanı bağışlayır. Yenə də deyirəm, həm Türkiyədən, həm Azərbaycandan, həm də digər ölkələrdən gələn xilasedicilər çox böyük iş görürlər. Əlbəttə ki, burada əsas və mənəvi yük Türkiyə hökumətinin üzərinə düşür. Mənim qardaşım hörmətli Prezident dərhal bütün göstərişləri verdi, bütün nazirləri fəlakət zonalarına göndərmişdir və tam əminəm ki, güclü və qüdrətli Türkiyə dövləti bu çətinliyi də aşacaq və tezliklə qurtarma, arama işlərinin aparılmasında öz səylərini davam etdirəcək. Ondan sonar, təbii ki, bərpa işlərinə də biz qoşulmağa hazırıq. Yəni, Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir".

Qətiyyətlə deyə bilərik ki, həm Ankaranın, həm də Bakının son uğurlarında məhz bir-birinin yanında olmağı şərəf sayan tərəflərin səmimiyyətinin xüsusi payı vardır. Bütün dünya yaxşı bilir ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsindən tutmuş, BMT Təhlükəsizlik Şurasının ermənilərin təşəbbüsü ilə keçirilən iclasından İrəvanın əliboş qaytarılmasınadək olan istənilən prosesdə qarşılıqlı səmimiyyət və etimadımız xüsusi rol oynamışdır. Bu gün Ankarada da, Bakıda da hamı eyni fikirdədir: Azərbaycan – Türkiyə qardaşlığı tarixi köklərə əsaslanır, mənəvi tellərlə bağlanır və ona görə də əbədidir.

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Hayların sözü qurtardı, hay-küyü qaldı

## yaxud Paşinyan üçün tarixə yazılacaq “yubiley hədiyyəsi”

(əvvəli 1-ci səhifədə)

### Üçüncü cəhd də uğursuz oldu

Ermənistan xarici işlər naziri Ararat Mirzoyanın BMT Təhlükəsizlik Şurasının iclasındakı məruzəsində “aclıqdan əziyyət çəkən artsaxlı uşaqların” fotolarını nümayiş etdirməsi kənardan olduqca miskin bir mənzərə təəssüratı bağışlasa da, “humanitar böhran”, “ölümcül blokada”, “etnik təmizləmə” kimi feyk məlumatları ilə müşayiət olunan fikirləri zalda gözlədikləri “effekti” yaratmadı.

Beynəlxalq təşkilatın ali orqanının toplantısında Ermənistan təmsilçisindən daha çox Fransanın nümayəndəsinin çıxışı “parlaq və yaddaqalan” oldu. Nikola de Rivyer öz çıxışında bölgədə davamlı sülhə “sadiq olduqlarını”, “Qarabağ ermənilərinin hüquqları” daxil, sülh danışıqlarının bərpasını istədiklərini dedi. Bu zaman fransalı səfir bütün diplomatik etiket qaydalarını pozaraq, Fransanın Minsk qrupunun həmsədr dövləti olduğunu da “unutdu”. Müsyö Rivyer özünü nəinki ermənipərəst mövqeli siyasətçi, hətta rəsmi İrəvanın səlahiyyətli nümayəndəsi kimi apardı. Fəqət ötən ilin dekabrında olduğu kimi, BMT TŞ-nin daimi və qeyri-daimi üzvləri Fransa və Ermənistanı fakt qarşısında qoydular. “Doğma bacılar” bu dəfə də uğursuzluğa düçar oldular. Oxucularımıza xatırladaq ki, 2022-ci ilin dekabrında TŞ-ya sədrlik edən Fransa onda cəhdinin iflasa uğramasından elə qəzəblənmişdi ki, BMT-dəki daimi nümayəndəsini geri çağırmaq istəyirdi. Yəqin, bundan sonra ümid etmək olar ki, bu iki müttəfiq dövlət bir daha bu tip cəfəngiyyat dolu tələb və təşəbbüslərlə çıxış etməyəcək. Əminliklə deyə bilərik ki, onların üçüncü cəhdi sonuncu olacaq. Biz artıq o reallıqla barışmışıq ki, Fransanın Azərbaycana qarşı bütün treklərdə və platformalarda düşmən münasibəti ardıcıl və xroniki hal alıb. Əslində, rəsmi Parisin Nyu-Yorkda ermənipərəst mövqedən çıxış edəcəyi gözlənilən idi. Amma onun bu dərəcədə ermənipərəst mövqe ortaya qoyacağı bizim üçün siyasi riyakarlığın, anti-Azərbaycan “doktrinasının” kulminasiya nöqtəsi sayılmalıdır.

### Biz də tək deyilik...

Ekstern toplantının adi müzakirələrdən uzağa getməyəcəyi Azərbaycanın BMT yanında daimi nümayəndəsi Yaşar Əliyevin hərtərəfli, fakt və arqumentlərlə əsaslandırılmış çıxışından sonra dəqiqləşdi. Azərbaycan təmsilçisi elə nitqinin əvvəlindəcə tam cəsarətlə BMT Təhlükəsizlik Şurası kimi ali məqamın Ermənistan üçün sui-istifadə platformasına çevrildiyinə işarə vurdu: “Ermənistanın humanitar məsələ kimi təqdim etməyə çalışdığı olay, əslində, Azərbaycanın suverenliyinə və ərazi bütövlüyünə zərbə vurmaq məqsədilə aparılan təxribatçı və məsuliyyətsiz siyasi kampaniyadır”.

Y.Əliyevin dəqiq formulə etdiyi bu fikrini daha sonra onun türkiyəli həmkarı Sədat Önal da dəstəklədi: “Türkiyə Ermənistanın BMT Təhlükəsizlik Şurası kimi beynəlxalq meydandan Laçın dəhlizi mövzusu daxil olmaqla siyasi motivli ittihamları bəyan etmək üçün istifadə cəhdlərindən narahatdır”.

Toplantıda qardaş Türkiyədən başqa, Azərbaycanın mövqeyini Albaniya və Braziliya nümayəndələri müdafiə etdilər. Həmin ölkələrin diplomatları BMT-dəki həmkarlarına Qarabağ erməniləri üçün Xankəndi–Ağdam yolunun açıq olduğunu xatırlatdılar. Yəni, Ermənistan nümayəndələrinə bildirdilər ki, əgər İrəvanın “humanitar böhran” problemi varsa, buyursun Azərbaycanın təklif etdiyi yolu seçsin.



“Humanitar ehtiyaclar siyasiləşdirilməməli və digər məsələlərin həllində sui-istifadə olunmamalıdır. Bəli, humanitar tələbat dünyanın hər yerində, həmçinin Qarabağ bölgəsində də təmin edilməlidir. Fikrimizcə, söhbət humanitar məsələdən gedirsə, mümkün olan hər şeyi, bütün variantları nəzərdən keçirmək lazımdır. Bura digər yollar, həmçinin təklif olunan Xankəndi – Ağdam yolu da daxildir”. Bu sözləri Albaniyanın BMT-dəki daimi nümayəndəsi Fərid Hoca vurğuladı.

### Azərbaycan əleyhinə sənəd qəbul olunmadı

Beləliklə, BMT TŞ-də Ermənistan və Fransanın Azərbaycana qarşı beynəlxalq hüquqa zidd, avantürist iddiaları rədd edildi. Çıxışlarda diqqəti çəkən bir cəhət də Fransanın “əhatə dairəsində” olan Malta və İsveçrə təmsilçilərinin müzakirə edilən konkret məsələni konteksdən çıxararaq imitasiyalara cəhd etmələri oldu. Bu ölkələrin səfirlərinin üzündən oxuduqları mətndən hətta tam xəbərdar olmadıqları hiss edilirdi. Təbii olaraq yekunda rəsmi İrəvan və onun havadarları BMT Təhlükəsizlik Şurasının ekstern iclasından gözlədikləri nəticəni əldə edə bilmədilər. Yəni, toplantı heç bir sənəd və ya qərar qəbul edilmədən başa çatdı.

Amma bu müzakirə və çıxışları heç də nəticəsiz və faydasız hesab eləmək olmaz. Əvvəla, birinci və ən ümdə nəticə ondan ibarətdir ki, prosesin gedişatı və nəticənin özü Azərbaycan diplomatiyasının böyük uğuru, Ermənistanın isə növbəti dəfə ifşası kimi tarixə yazıldı. Daha doğrusu, İrəvan nə qədər riyakar və ikiüzlü olduğunu dünyaya göstərmiş oldu. Ən azı, ona görə ki, 30 il BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini qulaqardına vuran, onları icra etməkdən açıq formada imtina edən bir dövlətin indi, quyruğu qapı arasında qalanda BMT TŞ-dən mədət ummasına siyasi riyakarlıqdan başqa ad vermək olmaz. Prosedura görə, qətnamənin qəbul olunması üçün Təhlükəsizlik Şurasının daimi üzvlərinin yekdil qərarı tələb olunurdu. Bu isə indiki şəraitdə mümkün deyildi. BMT Təhlükəsizlik Şurasının daimi üzvlərindən Rusiya və Çin son illər bir qayda olaraq, digər 3 üzvün – ABŞ, Fransa və Böyük Britaniyanın təkliflərinin əleyhinə səs verirlər. Ona görə də daimi üzvlərdən birinin – Fransanın Ermənistanın və Qarabağ separatçılarının xeyrinə qəbul etdirmək istədiyi hər hansı sənədə Rusiyanın dəstək verməyəcəyi, veto hüququndan istifadə edəcəyi şübhə doğurmurdu. Bu versiyanı əsaslandıran digər səbəb kimi Moskvanın ABŞ və Avropa İttifaqının Cənubi Qafqazda artan fəallığından keçirdiyi narahatlığını da qeyd etməliyik.

### Böyük güclər üçün şəxsi maraq öndə gəlir

BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı qətnamənin qəbulu ABŞ və Böyük Britaniyanın da maraqlarına cavab vermirdi. Çünki hər iki supergücün Azərbaycanla strateji tərəfdaşlığı mövcuddur. Bu iki dövlətin BMT-dəki təmsilçiləri, sadəcə olaraq, Laçın yolunun açılmasının vacibliyini bildirdilər, amma eyni zamanda, alternativ yollardan istifadəni də mümkün saydılar. Ümumiyyətlə, BMT TŞ-dakı çıxışlarda tez-tez “Ağdam-Xankəndi yolu” ifadəsinin səslənməsi bizim üçün prioritet məsələ hesab oluna bilər. Görünən odur ki, Vaşinqton və London Bakının mənafeyinə toxunacaq hər hansı sənəd qəbul etməməklə mövcud münasibətləri korlamaq istəmədilər. Onların səfirləri diplomatik jest edərək “Laçın yolu açılmalıdır” deməklə, həm də İrəvanı razı salmağa çalışdılar.

Albaniyanın BMT-dəki təmsilçisinin Azərbaycanın ədalətli mövqeyini dəstəkləyən parlaq çıxışı isə iki ölkə arasında münasibətlərin bundan sonra da inkişafı üçün yaxşı zəmindir. Nyu-York toplantısına və onun yekunlarına rəsmilərdən və qeyri rəsmilərdən reaksiyalar gəlməkdədir. Azərbaycanın AŞPA-da nümayəndə heyətinin rəhbəri, Milli Məclisin deputatı Səməd Seyidov “X”də paylaşımında bunları qeyd edib: “Ermənistanın BMT Təhlükəsizlik Şurasını şantaj strategiyaları üçün istifadə etmək cəhdləri dəfələrlə uğursuzluğa düçar olub. BMT üzvlərinin vurğuladığı kimi, regionda sülh suverenliyə və ərazi bütövlüyünə hörmətdən asılıdır. Azərbaycan regional sabitliyə müsbət töhfə verməyə sadiqdir!”.

Aydın məsələdir ki, Ermənistanın hakimiyyəti BMT-də Azərbaycan əleyhinə hər hansı sənədin qəbul olunmamasını özünün məğlubiyyəti kimi qəbul etməyəcək. Bundan sonra da şərqli, qərbli tərfdaşlarınnın ətəyindən yapışmaqda davam edəcək.

### Nikolun “yubiley”inə layiqli “hədiyyə”

BMT TŞ-də məlum müzakirələr yerli vaxtla avqustun 16-da başlayıb, 17-də yekunlaşdı. Bu tarixi təsadüfən xatırlatmırıq. Çünki, 17 avqust Hayastanın baş naziri üçün əlamətdar tarixdir. Düz beş il bundan əvvəl Nikol məhz Qərbin dəstəyi sayəsində İrəvandakı rusiyapərəst iqtidarı istefaya getməyə məcbur etmişdi. Kütləvi etirazlar dalğasında hakimiyyətə gəlişinin beşinci ildönümündə Nikol Paşinyan ümid edirdi ki, fövqəldövlətlər beynəlxalq hüquq və normaların üstündən adlayıb Azərbaycana qarşı ədalətsiz qətnamə qəbul edəcək, yaxud bəyanat verəcəklər. Hayastan baş naziri yəqin o gün həm də gözləyirdi ki, dəstəkçiləri BMT TŞ-də Bakıya qarşı “daşdankeçən” sənədi qəbul etdirməklə ona “yubiley hədiyyəsini” ərmağan edəcəklər. Lakin alınmadı. Necə deyərlər, sən saydığını say, görək BMT TŞ nə sayır!




Bir daha təsdiq olundu ki, beynəlxalq hüquq və ədalət Azərbaycanın tərəfindədir. Əks-təqdirdə, onlar belə bir şansı qətiyyən əldən verməzdilər. Aydın məsələdir ki, Nikol Paşinyan və onun komandasının BMT TŞ-də beynəlxalq məğlubiyyəti bütövlükdə hayların feyk-təbliğatına və ictimai rəylə manipulyasiyasına çox ciddi zərbə vuracaq. İrəvanın dezinformasiya “ordusunun” bundan sonra da dinc oturmayacağı, hər cinahdan üstümüzə xain hücumları təşkil edəcəyi gözləniləndir. Onların BMT-nin səhnəsində düçar olduları məğlubiyyətdən ibrət götürəcəkləri də inandırıcı deyil. Axı, indi bu “şər ordusu”nun Okampo, Lindsi Snell, Devid İqnatius kimi korrupsioner, satılmış hüquqşünasları və jurnalistləri peyda olub. Fəqət bu dəfə birləşmiş taktiki gediş fiaskoya uğradı, gözlədikləri anti-Azərbaycan qətnaməsini qazana bilmədilər.

### Mirzoyanın boğazının quruduğu an

Müzakirənin gedişində bəzi iştirakçıların həqiqətlə yanaşı, təhriflərə yol vermələrinə baxmayaraq, böyük əksəriyyətin çıxışlarının kəsişmə nöqtəsi Azərbaycanın ərazi bütövlüyü məsələsi idi. Ermənistan nümayəndə heyətini “cin atına mindirən” də məhz bu məqam idi. Axı, rəsmi İrəvanın BMT TŞ kimi nüfuzlu bir platformanı “realiti-şou” səhnəsinə çevirmək cəhdlərinin heç birinin faydası olmadı. BMT-dəki səfirlərinə istirahərt verib, bu yüksək tribunada məruzəçilik missiyasını boynuna götürmüş Ermənistan xarici işlər naziri Ararat Mirzoyan isə Yaşar Əliyevin hüquqa, faktlara və məntiqə söykənən çıxışından sonra, ümumiyyətlə danışmağa söz tapmadı. Bircə epizodu yada salaq. BMT yanında daimi nümayəndəmiz ermənilərin özlərinin sosial şəbəkədə paylaşdığı, Xankəndidə, Ağdərədə toy-düyün məclislərindən, yubiley mərasimlərindən fotoşəkilləri göstərib, “blokadada acından ölən” Qarabağ ermənilərinin tox halda şadyanalıq etdiyini, bu münasibətlə onlara səmimi təbrikini ünvanlayanda, görəsən, Mirzoyan nə düşünürmüş? Əslində, bunun bizim üçün elə bir əhəmiyyəti yoxdur. Ortadakı fakt ondan ibarətdir ki, Hayastanın baş diplomatı növbəti dəfə vətəninə əli ətəyindən uzun qayıtmağa məcbur oldu.

Xatırladaq ki, keçən ilin dekabrında İrəvan və Parisin məsələni BMT TŞ-də müzakirəsi üçün birgə cəhdləri də fiaskoya uğramışdı. Yeddi ay bundan əvvəl olduğu kimi, bu dəfə də Ermənistanın diplomatik avantürası baş tutmadı.

Nikol Paşinyanın 16 avqust uğursuzluğunu Hayastan ictimaiyyətinə necə təqdim edəcəyi, daha doğrusu, yalanın hansı çalarına bürüyüb sırıyacağı maraq doğururdu. Baş nazirin reaksiyası özünü çox gözlətmədi və X-də BMT TŞ-nın toplantısının “müsbət nəticə” ilə yekunlaşdığını qeyd etdi. O, beynəlxalq qurumdakı dünənki müzakirələrin “uğurlu nəticəsi” kimi, “Laçın dəhlizinin blokadası” faktının və Qarabağın “erməni sakinlərinin mövcudluğuna təhlükə”nin fiksə olunduğunu “muştuluqladı”. Növbəti məğlubiyyətinin dadını çıxaran baş nazir Ermənistan ictimaiyyətinə başqa nə deyə bilərdi ki? Bəlkə yazmalıydı ki, Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Yaşar Əliyev onların “blokada” və “aclıqdan ölən arsaxlılarla” bağlı yalanlarını darmadağın edəndə xəbər tutmayıb, dediklərini eşitməyib, o dəqiqələrdə yuxuya getmişdi?

BMT TŞ-nin 16 avqust toplantısından sonra iştirakçıların əksəriyyətində belə bir qənaət hasil oldu ki, əslində, bu müzakirəyə heç ehtiyac yox idi. Məsələ beynəlxalq platformalarda deyil, yerində, həm də Azərbaycan hakimiyyəti tərəfindən həll edilməli idi. İndi bu aksiomu bütün dünya qəbul etdi. Ona görə də Qarabağ erməniləri anlamalıdırlar ki, girovuna çevrildikləri durumdan başqa çıxış yolu yoxdur. Bütün danışıqlar, müzakirələr və məsləhətləşmələr ərazisində yaşadıqları ölkənin – Azərbaycanın şərtləri əsasında aparılacaq, son sözü də Bakı deyəcək.

*İmran BƏDİRXANLI,*
*“Xalq qəzeti”*

# Həqiqətin gözünə dik baxa bilməyənlər

## Ermənilərin BMT-nin mənzil-qərargahının önündə dinc piket keçirən soydaşlarımıza hücumu

**Srağagün Nyu-Yorkda BMT-nin baş ofisinin qarşısında təşkil olunan piketdə Azərbaycan və Türkiyənin bayraqları dalğalandırılıb. Aksiya iştirakçıları “Qarabağ Azərbaycandır!”, “Azərbaycan sülh istəyir!”, “Ermənistan faktları təhrif edir, dünya ictimaiyyətini aldadır!”, “Ermənistan, öz qeyri-qanuni qoşunlarını Qarabağdan çıxar!”, “Ermənilərin basdırdıqları minalar mülki əhalini qırır!”, “Ermənistan, itkin düşmüş adamlarımızın taleyi barədə məlumatı Azərbaycana təqdim et!”, “Ermənistan Azərbaycanın İrəvandakı mədəni irsini məhv edib!” kimi şüarların əks olunduğu plakatları nümayiş etdiriblər.**

Aksiyada çıxış edən gənclər BMT-dən beynəlxalq hüquq normalarına məhəl qoymayan təcavüzkar Ermənistana qarşı sərt addımlar atılmasını, məsələyə ədalətlə yanaşmağa çağırış ediblər.

Həmvətənlərimiz ərazidən keçənləri Erməistanın işğalçılıq siyasəti və yalanları barədə məlumatlandırıblar. Aksiyanın keçirildiyi əraziyə gələn bir qrup erməni soydaşlarımızın dinc piketini pozaraq onlara qarşı təxribat törədiblər. Onlar əllərində plakatlar və qondarma qurumun bayraqları ilə azərbaycanlılara hücum çəkib, yoldan keçən maşınların qarşısını əllərindəki plakatlarla kəsiblər. Bu, azmış kimi, Azərbaycan Dövlət bayraqlarını cırmaq istəyən erməni təxribatçılar həmvətənlərimizi qəzəbinə tuş gəlib və qarşıdurma yaşanıb.



Dinc piketin keçirildiyi əraziyə Nyu-York Şəhər Polis Departamentinin əməkdaşları cəlb olunub. Bu zaman həmvətənlərimizə təziq göstərən ermənilər polisə yalan məlumatlar verərək, özlərini müdafiə etməyə çalışıblar. Polis əməkdaşları baş vermiş insidentə dair foto və videogörüntüləri izləyibləր.

Bundan sonra asayiş keşikçiləri həmvətənlərimizə hücüm edən Cobanyan Sulyanı hadisə yerində həbs ediblər. Ondan savayı, təxribat törədən və özünü yalandan BMT-nin əməkdaşı kimi təqdim edən digər erməni də sorğu-sual üçün polis bölməsinə aparılıb.

Həmvətənlərimiz Alidə Zeynalova və Amerika-Azərbaycan Qadınlar Cəmiyyətinin rəhbəri Münəvvər Vahabova da hadisə ilə bağlı dindirilmək üçün polis bölməsinə aparılıb. Müvafiq prosedurdan sonra onlar sərbəst buraxılıblar.

*“Xalq qəzeti”*

# Ulu öndər və milli dirçəliş fəlsəfəsi



***Biz nadir bir dövlətçilik irsinin varisləriyik. Hər bir Azərbaycan vətəndaşı bu irsə layiq olmağa çalışaraq böyük bir tarixi keçmişi, zəngin mədəniyyəti, yüksək mənəviyyatı olan dövlətimizin həm dünəninə, həm bu gününə, həm də gələcəyinə dərin bir məsuliyyət hissi ilə yanaşmalıdır.***

***Heydər ƏLİYEV***
***Ümummilli lider***

**Elm heç kəsin istəyindən və iradəsindən asılı olmayan gerçəkliyi aşkar və sübut edir. Məşhur ərəb filosofu Əl Fərabinin fikrincə, dövlət ali sinfə mənsub adamların vasitəsilə yaranır. Hər bir dövlətin keçdiyi inkişaf yolunu, siyasi-ictimai, elmi-mədəni fəaliyyətini müəyyən edən milli inkişaf sistemi və bu sistemin qurulması üçün görüləcək işlərin xarakterini və ardıcıllığını müəyyən edən milli inkişaf strategiyası vardır. Dünyada baş verən siyasi proseslərin formaca mürəkkəb və məzmunca ziddiyyətli olduğu bir dövrdə həyata keçirilən siyasətin səciyyəvi xüsusiyyətləri çox mühüm nəzəri, eyni zamanda, praktik əhəmiyyətə malikdir. Bu baxımdan ulu öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin həyata keçirdiyi milli inkişaf strategiyasının araşdırılması elmi-praktik baxımdan zəruridir. Zaman ötdükcə ulu öndər Heydər Əliyevin Azərbaycanın inkişafı naminə gördüyü işlərin miqyası daha dərindən dərk olunur.**

Heydər Əliyevin zəkası bütün sədləri aşaraq və qarşıya çıxan heç bir çətinliyə baxmayaraq, Azərbaycanı olduqca mürəkkəb zamanın dalğaları arasından salamat çıxarmış, ona həm bölgədə, həm də dünyada layiqli yer qazandırmışdır. Çağdaş Azərbaycanda dövlət quruculuğunun, iqtisadi dirçəlişin, siyasi şüurun, siyasi həyatının son otuz ildən artıq bir dövrünü əhatə edən zaman kəsiyi böyük siyasət xadimi kimi tanınan və dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin – Heydər Əliyevin adı əməli fəaliyyəti ilə, gerçəkləşdiyi konkret işlərlə bağlıdır. Bu mürəkkəb proseslər isə onun həm əməli fəaliyyətində, həm də fəlsəfi məfkurəsində – milli dirçəliş fəlsəfəsində öz əksini tapmışdır.

Azərbaycan xalqının ulu öndəri Heydər Əliyevin titanik fəaliyyəti dövlət idarəçiliyi akademiyası olmaqla, ən müxtəlif aspektlərdən tətbiq və təhlil edilməlidir. Dahi şəxsiyyət Heydər Əliyevin sayəsində 1969-cu ildən etibarən milli mənəvi dəyərlərimiz, soy-kökümüz özümüzə qayıtmış, 1993-2003-cü illər isə tariximizə inkişaf, tərəqqi dövrü kimi yazılmışdır.

Məhz ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Nəsimi, Cəfər Cabbarlı, Nəriman Nərimanov, Cəlil Məmmədquluzadə, Mehdi Hüseynzadə, Hüseyn Cavid abidələri, Üzeyir Hacıbəylinin, Cəlil Məmmədquluzadənin, Hüseyn Cavidin, Cəfər Cabbarlının. Niyazinin, Bülbülün, M.S.Ordubadinin, Əzim Əzimzadənin, Nəriman Nərimanovun, Cəmşid Naxçıvanskinin və başqa elm və mədəniyyət xadimlərinin, şəxsiyyətlərin ev muzeyləri yaradılmışdır.

Dahi şəxsiyyət Azərbaycan xalqını, Azərbaycan elmini, mədəniyyətini necə deyərlər, qışdan bahara çıxardı. Ümummilli lider Heydər Əliyev daim dövlətinin və xalqının bütövlüyü uğrunda fədakarlıqla çalışmış, müstəqilliyimizin möhkəmləndirilməsi, dövlətçiliyimizin inkişafı, elmin tərəqqisi üçün müstəsna işlər görmüşdür. Ulu öndər Azərbaycanı məharətlə inkişaf etdirmiş, bütün dünyaya tanıtmışdır. Məhz elə buna görə də dahi şəxsiyyətin adı hazırda, sözün həqiqi mənasında, müasir müstəqil Azərbaycan dövlətinin rəmzi kimi səslənir.

Bugünkü alimlər ulu öndər Heydər Əliyevin elmi irsinin dərindən öyrənilməsi və gənc nəslə ötürülməsini özünə borc bilməlidirlər. Heydər Əliyevin elm sahəsindəki bütün fəaliyyəti ali bir ideyaya – azərbaycançılıq məfkurəsinə xidmət edir. Bu böyük şəxsiyyətin irəli sürdüyü strategiya indiki nəslin gözü önündə reallığa çevrilib, ölkəmizin hazırkı nailiyyətləri, müstəqilliyimizin daha da möhkəmlənməsi Heydər Əliyev kursunun, azərbaycançılıq ideyasının uğurla reallaşdırılmasının bəhrəsidir. Heydər Əliyev müdrik müəllim kimi gənclərə “Siz hələ gəncsiniz. Qarşınızda böyük yaradıcılıq yolu vardır”, – söyləyərək onlara dəstək olurdu.

Hazırda Prezident cənab İlham Əliyevin Azərbaycan gəncliyinin elm sahəsindəki maraqlarının inkişafına diqqət və qayğısının sayəsində Azərbaycan gəncliyi özünün intibah dövrünü yaşayır. Dünya azərbaycanlılarının həmrəyliyində Heydər Əliyevin formalaşdırdığı azərbaycançılıq fəlsəfəsi mühüm rol oynamışdır. Heydər Əliyev rəhbərlik etdiyi dövr ərzində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. O, böyük dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmişdir. Buna görə də Heydər Əliyev fenomeni həmişə diqqəti cəlb etmiş, heyranlıq doğuracaq coşğun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya mətbuatında geniş işıqlandırılmışdır.

Azərbaycan elminə hər zaman həssaslıqla yanaşan ulu öndər Heydər Əliyev AMEA-nın inkişaf etməsinə qayğısını heç vaxt əsirgəməyib. Xalqına dərindən bağlanan, həyatını Azərbaycanın tərəqqisinə həsr edən dahi şəxsiyyət Azərbaycan Milli Elmlər Akademiyasının fəaliyyətini daim diqqət mərkəzində saxlayıb, onun dünya miqyasında tanınmasına nail olmuşdur.

Ümummilli lider Heydər Əliyevin çıxışı elmi baxımdan diqqəti cəlb etmişdi: “Gənc vaxtımda türk dilini öyrənmişdim, hətta mənim lüğətim də olubdur – “Azərbaycan–türk lüğəti”, sonra “Türk–rus lüğəti”. Mən bununla gənclik vaxtımda məşğul olmuşam. Hər bir xalqın milliliyini, mənəvi dəyərlərini yaşadan, inkişaf etdirən onun dilidir. Bizim ən böyük sərvətimiz ondan ibarətdir ki, dilimiz yaşayıb və zənginləşibdir.’’ Azərbaycan Elmlər Akademiyası üçün deyil, bütövlükdə, Azərbaycan Respublikasının inkişafında, xalqımızın milli-mənəvi dəyərlərinin, mədəniyyətinin intibahında yarım əsr əvvəl – 1969-cu il iyulun 14-də ümummilli lider Heydər Əliyevin hakimiyyətə gəlməsi müstəsna rol oynamışdır. Azərbaycan elminin, Elmlər Akademiyasının ən çox inkişaf etdiyi dövr, elmin yeni yüksəlişi Heydər Əliyev kimi dahi şəxsiyyətin hakimiyyəti illərinə təsadüf edir.

1969-cu ilin iyun ayında ümummili lider Heydər Əlirza oğlu Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçilməsi ilə elm, təhsil, mədəniyyət, ədəbiyyat, səhiyyə sahəsində sözün əsl mənasında, inqilab baş verdi. Azərbaycan Elmlər Akademiyası (AEA) onun böyük təşkilatçılıq istedadı nəticəsində dünyada şöhrət qazanmış, maddi-texniki bazasını möhkəmləndirmişdi. Heydər Əliyevin elmi fəaliyyət sahəsində həyata keçirdiyi siyasətin nəticəsi olaraq akademiya Sovet dövründə bir sıra uğurlara imza atmışdır. Neft və qaz yataqlarının kəşfi, işlənməsi, mürəkkəb geoloji mühitlərdə dərin qazmanın elmi problemlərinin həlli, həmçinin kimyanın, neft-kimya sənayesinin inkişafı üçün xammal bazasının, kimya texnologiya komplekslərinin yaradılması, coğrafi və s. istiqamətlərdə uğurları xüsusi qeyd etmək lazımdır.

1969-cu il noyabrın 1-də Heydər Əliyev Bakı Dövlət Universitetinin 50 illik yubileyində Azərbaycan elminin və təhsilinin əsas istiqamətlərini müəyyənləşdirən möhtəşəm bir nitq söyləmişdir. Bu nitqi dövrün inqilabi sensasiyasına çevirən fakt isə o idi ki, sovet rejiminin yerli respublikaların rəhbər kadrları üçün müəyyənləşdirdiyi çərçivələrə baxmayaraq, Heydər Əliyev onu doğma Azərbaycan dilində söyləmişdi. O zaman üçün fövqəladə hal hesab edilən partiya liderinin Azərbaycan dilində çıxışı universitet həyatında milli ruhun, milli özünüdərkin, milli dirçəliş və oyanışın hərəkətə gətirilməsinə sanki start verdi.

Azərbaycan ziyalıları, sözün əsl mənasında, qanı-canı ilə milli mənafeyi hər şeydən uca tutan həqiqi milli liderini gördü, tanıdı və bütün varlığı ilə ona inanmağa başladı. Respublika rəhbərinin milli dilə bu şəkildə sevgisi xüsusilə dilçi alimləri vəcdə gətirmişdi. Bunun nəticəsində də tezliklə universitetdə 4 cildlik “Müasir Azərbaycan dili” dərsliyi hazırlayıb nəşr edildi və ulu öndərin təşəbbüsü ilə bu əsər Azərbaycan Dövlət Mükafatına layiq görüldü.

Heydər Əliyevin prinsipiallığı və qətiyyəti aktiv fəaliyyəti nəticəsində 1978-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasına Azərbaycan dilinin dövlət dili olması haqqında məşhur 73-cü maddə daxil edildi. O dövrdə milli dilə Konstitusiya səviyyəsində dövlət dili statusu vermiş müsəlman respublikası Azərbaycan idi. Heydər Əliyevin “Literaturnaya qazeta”da dərc edilmiş məşhur müsahibəsinin sərlövhəsindəki “Qoy, ədalət zəfər çalsın!” aforizmi Azərbaycan ictimaiyyətinin qabaqcıl nümayəndələri, məmur heyətinin böyük bir qismi üçün mənəvi-əxlaqi prinsipə çevrildi.

Bu dövrdə akademiya şəhərciyinin tikintisi tam başa çatdırılmış, Elmlər Akademiyasında, ali məktəblərdə və başqa müəssisələrdə çalışan elmi işçilərin sayı xeyli artmış, elmi tədqiqat işlərinin sürətlənməsi müşahidə edildi, yeni institutlar, laboratoriyalar, konstruktor büroları açılmışdır. Elm, iqtisadiyyat və mədəniyyətin inkişafı, yüksək ixtisaslı kadrların hazırlanması sahəsində qazandığı nailiyyətlərə görə Azərbaycan Elmlər Akademiyasının aldığı yüksək mükafat “Xalqlar dostluğu” ordeni 1975-ci ildə Heydər Əliyev tərəfindən təqdim olunmuşdur.

Azərbaycan elminin inkişafı məhz ümummilli liderimizin adı ilə bağlıdır. Ulu öndər Heydər Əliyevin 1993-cü ildə xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışından sonra bütün sahələr kimi elm sahəsində aparılan uğurlu islahatlar sayəsində Azərbaycanın elmi böyük yüksəliş dövrü yaşayaraq, inkişaf yoluna qədəm qoydu.

Ulu öndər deyirdi: “Xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır”. Ümummilli lider, eyni zamanda, bildirmişdir ki, gənclərimiz dilimizi, mədəniyyətimizi yaxşı bilməlidirlər.

Azərbaycanın özünün dövlət müstəqilliyini əldə etdikdən sonra Heydər Əliyevin müdrik siyasətçi kimi respublikamızda gedən mürəkkəb və ziddiytəli proseslərə verdiyi qiymət, bir qayda olaraq, ictimai praktikada özünün təsdiqini tapırdı. Məhz buna görə də, xalqımız Azərbaycanın ən gərgin anlarını yaşadığı bir vaxtda Heydər Əliyevin hadisələrə yanaşma tərzinə və proseslərin hansı sonluqla nəticələnəcəyi barəsində söylədiyi fikirlərə daim böyük ehtiyac hiss etmişdir. Azərbaycan xalqında Heydər Əliyevə daim böyük inamın olması bu görkəmli şəxsiyyətin fenomenallığı və təkrarsızlığı ilə bağlıdır. Heydər Əliyev irsinin gələcək nəsillərin öyrənilməsi üçün bundan sonra da geniş tədqiqatlar aparılmalıdır. Bütün dünyada Heydər Əliyev deyəndə Azərbaycan, Azərbaycan deyəndə Heydər Əliyevin anılması vahid anlayışa çevrilmişdir.

Ümummilli lider Heydər Əliyev – Milli dövlətçiliyimizin mükəmməl konsepsiyasını yaratdı.

Nobel mükafatı laureatı Henrix Vilandın deyirdi ki, dahilər heç bir işi yarımçıq qoymurlar. Heydər Əliyev də başladığı işi yarımçıq qoymadı. Azərbaycanı yeni inkişaf yoluna çıxaran ümummilli liderin qazandığı uğur və nailiyyətlərin davamlı olmasını təmin etmək üçün göstərdiyi müstəsna xidmətlərindən biri də özündən sonra ölkəmizə layiqincə rəhbərlik edəcək, xalqın alternativsiz liderinə çevriləcək davamçı – siyasi varis yetişdirməsidir. Heydər Əliyev 2003-cü il prezident seçkiləri ərəfəsində xalqa müraciətində deyirdi: "İlham Əliyev yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir siyasətçidir”.

Xalq ulu öndərin tövsiyəsinə əməl edərək cənab İlham Əliyevi Azərbaycanın Prezidenti seçdi və seçimində də yanılmadı. Prezident İlham Əliyev Heydər Əliyev siyasi kursuna sadiq qalaraq, Azərbaycanı yeni zirvələrə dogru aparmaqdadır. Ulu öndərin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev Azərbaycanı regionun liderinə, dünyanın sayılıb seçilən dövlətinə, kosmik klubun üzvünə çevirib.

Bu gün ölkəmizin inkişafında və dünya səviyyəsində tanınmasına səbəb olan səriştəli siyasi rəhbər, təcrübəli diplomat, Prezident İlham Əliyevin beynəlxalq münasibətlərin bütün sirlərinə məhz gənc yaşdan yiyələnməsi onun dahi bir şəxsiyyət olmasına zəmin yaradırdı. Məhz gənc yaşlarında yiyələndiyi diplomatiyanın bütün sirlərindən məharətlə istifadə edən siyasi xadim beynəlxalq arenada Azərbaycanın maraq və mənafelərini qorumuşdur.

Ümumiyyətlə, onun güclü diplomatik təcrübəsi, idarəetmə və liderlik təcrübəsi Azərbaycanın inkişafında, iqtisadiyyatın güclənməsində, ordu quruculuğunda, neft strategiyalarının həyata keçirilməsində böyük rol oynamışdır.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sayəsində Azərbaycan 30 ildən bəri işğal altında qalan torpaqlarını erməni işğalından azad etdi. Bu gün Qarabağ və Şərqi Zəngəzurda qısa dövr ərzində həyata keçirilən yenidənqurma işləri: Zəfər yolu, Füzuli Beynəlxalq Hava Limanının istifadəyə verilməsi, Zəngilanda Ağalı kəndinin yenidən qurulması işğaldan azad olunmuş ərazilərimizin bərpasının möhtəşəm nümunələrindəndir. Zaman keçəcək, gələcək nəsillər Ali Baş Komandan, Prezident İlham Əliyevin Böyük Qələbəyə doğru aparan yolda nümayiş etdiridiyi fədakarlığı, xalqın, dövlətin mənafeyi naminə atdığı addımları dərindən təhlil edəcək, onun liderliyi ilə keçilən yolun hər addımınnan qürur duyacaqlar. Ən əsası Prezident İlham Əliyevin Azərbaycanı qalib dövlətə çevirmək strategiyası və bacarığı təkcə gənc nəsil və gələcək nəsillər üçün nümunə olacaqdır. Azərbaycan Respublikası Prezident cənab İlham Əliyevin titanik fəaliyyəti ilə daha yüksək zirvələri fəth edəcəkdir.

***Günel MƏLİKLİ,**
**AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun şöbə müdiri***

## Ulu öndər hərbi hissələrdə anıldı

**Hərbi Prokurorluq Dövlət Sərhəd Xidməti ilə birgə Ulu öndərin 100 illik yubileyi münasibətilə Lənkəran və Cəlilabad rayonlarında yerləşən “N” saylı hərbi hissələrdə tədbirlər keçirib.**



Hərbi prokurorluğun mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Lənkəran Hərbi prokuroru Elşən Əli-Məmmədov, polkovnik Rauf Abdullayev, polkovnik Əli Əliyev, polkovnik-leytenant Fizuli Umarov və digər çıxışçılar ümummilli lider Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, dövlətimizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

***“Xalq qəzeti”***

## Ümummilli liderin xatirəsinə beynəlxalq cüdo turniri

**Beynəlxalq Cüdo Federasiyasının qərarı ilə “Dünya Cüdo Turu” çərçivəsində bu il 22-24 sentyabrda Bakıda keçiriləcək Böyük dəbilqə yarışı ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr ediləcək.**



Rəsmi olaraq “Heydar Aliyev Baku Grand Slam 2023” adlandırılacaq yarış Milli Gimnastika Arenasında baş tutacaq. Turnirdə 60-dan çox ölkədən 350-dən artıq idmançının iştirak etməsi gözlənilir. Yarışın dünyanın 100-dən çox ölkəsinə canlı yayımlanması planlaşdırılır.

BCF-in çox istisna hallarda icazə verdiyi bu hal ümummilli lider Heydər Əliyevin ölkəmizdə idmanın və cüdonun inkişafına verdiyi əvəzedilməz töhfənin beynəlxalq idman ictimaiyyəti tərəfindən də tanındığını göstərir.

***“Xalq qəzeti”***

# Ermənistan rəhbərliyi bölgədə reallıqları hələ də düzgün qiymətləndirmir

**Azərbaycan Xarici İşlər Nazirliyi Ermənistanın baş naziri Nikol Paşinyanın avqustun 17-də hökumətin iclasında çıxışı zamanı BMT Təhlükəsizlik Şurasındakı müzakirələri və üzv dövlətlər tərəfindən səslənmiş bəyanatları təhrif etməsinə münasibət bildirib.**

XİN Ermənistan baş nazirinin çıxışında müzakirə və bəyanatları təhrif etməsini Ermənistanın növbəti dəfə BMT TŞ-də düçar olduğu uğursuzluqla barışmaq istəmədiyi kimi şərh edib.

Bildirilir ki, bölgədə "humanitar vəziyyət" barədə hazırkı iddiaların aradan qaldırılması üçün Azərbaycan tərəfindən təklif olunmuş Ağdam–Xankəndi yolundan istifadənin əksər üzv dövlətlər tərəfindən dəstəklənməsinə və bu yoldan istifadə edilməsinə çağırışlara baxmayaraq, Ermənistan baş nazirinin bu yoldan istifadəni qəbul etməməsi qarşı tərəfin bölgədə vəziyyəti daha da gərginləşdirməyə niyyətindən xəbər verir.

Məlumatda deyilir: "Bununla yanaşı, BMT TŞ üzvlərinin əksəriyyətinin vurğuladığı kimi, bölgədə sülh və sabitliyin bərqərar olması üçün həm sözdə, həm də əməldə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət edilməsinin vacibliyinə baxmayaraq, Ermənistan tərəfinin "bölgədə humanitar vəziyyət", "blokada" kimi bəhanələri təkrarlayaraq destruktiv mövqe sərgiləməsi narahatlıq doğurur. Eyni zamanda, üzv dövlətlərin Azərbaycanın legitim təhlükəsizlik narahatlıqlarının nəzərə alınmasının zəruri olduğunu bildirməsi, bu narahatlıqların həlli istiqamətində səylərin birləşdirilməsinin vacib olduğunu bir daha xatırladır.

Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni əsilli sakinlərin Azərbaycan qanunvericiliyi çərçivəsində reinteqrasiya siyasətinə qarşı Ermənistanın müqavimət göstərməsi, baş nazirin guya ölkəmiz tərəfindən erməni sakinlərə qarşı ataş açdığı barədə iddialar səsləndirməsi və ölkəmizi "etnik təmizləmədə" təqsirləndirməsi Ermənistan rəhbərliyinin bölgədə reallıqları hələ də düzgün qiymətləndirmədiyini nümayiş etdirir. Ermənistan tərəfi anlamalıdır ki, bölgədə sülh və sabitliyin təminatının yolu əsassız iddialarla BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmaqdan yox, ərazi bütövlüyünün və suverenliyin təsdiq olunması və hörmət edilməsi əsasında qonşu ölkələrlə münasibətlərin qurulmasından və sülhün bərqərar olunması üçün Azərbaycanla birbaşa konstruktiv danışıqlardan keçir".

*"Xalq qəzeti"*

# "BMT-də müzakirələr kimin real sülh istədiyini göstərdi"

**"BMT Təhlükəsizlik Şurasında keçirilən müzakirələr kimin suverenlik və ərazi bütövlüyünə qarşılıqlı hörmət əsasında real və davamlı sülh istədiyini, kimin isə revanşla bağlı boş ümidlərlə zaman qazanmaq üçün "humanitar fəlakət" tamaşaları oynamağa davam etdiyini bir daha göstərdi".**



Bunu Azərbaycan Prezidentinin köməkçisi, Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümov "X" ("Twitter") hesabındakı paylaşımda qeyd edib.

Onun sözlərinə görə, dünya ictimaiyyətinin yekdil fikri ondan ibarətdir ki, artıq tamaşalardan Azərbaycan və Ermənistan arasında uzunmüddətli davamlı sülhün konkret detallarının müzakirəsinə keçid etmək vaxtıdır.

# Diaspor təşkilatlarımızdan beynəlxalq ictimaiyyətə müraciət


AZERBAIJAN HOUSE IN BRUSSELS

15.08.2023

From: Azerbaijan House in Brussels

To: The United Nations Office at Geneva
Palais des Nations
CH-1211 Geneva 10, Switzerland

**Belçikada fəaliyyət göstərən Brüssel Azərbaycan Evi Cənubi Qafqaz bölgəsində yaranmış durumla və ölkəmizin sülh səylərinin dəstəklənməsi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib.**

Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki nümayəndəliyinə ünvanlanan bəyanatda Azərbaycan əsilli belçikalıların Ermənistanda mövcud olan revanşist əhval-ruhiyyəli qüvvələrin və erməni diasporunun yolverilməz əməlləri nəticəsində regionda yaranmış mövcud vəziyyətdən dərin narahatlıq keçirdikləri qeyd edilib.

Brüssel Azərbaycan Evi beynəlxalq təşkilatları erməni uydurmalarına inanmamağa, işğaldan azad edilmiş Qarabağ bölgəsində irimiqyaslı bərpa-yenidənqurma layihələri həyata keçirən sülhsevər Azərbaycanın mövqeyini dəstəkləməyə və tərəflər arasında konstruktiv dialoqun təşkilinə yardım göstərməyə çağırıb.

***

Fransa Azərbaycanlıları Koordinasiya Şurasının adından Birləşmiş Millətlər Təşkilatının Cenevrədəki nümayəndəliyinə müraciət ünvanlanıb. Sənəddə Fransa Azərbaycanlıları Koordinasiya Şurası beynəlxalq təşkilatları erməni uydurmalarına inanmamağa, işğaldan azad edilmiş Qarabağ bölgəsində irimiqyaslı bərpa-yenidənqurma layihələri həyata keçirən sülhsevər Azərbaycanın mövqeyini dəstəkləməyə və tərəflər arasında konstruktiv dialoqun təşkilinə yardım göstərməyə çağırıb.

***

Niderland–Belçika Azərbaycanlıları Koordinasiya Şurasının BMT-nin Cenevrədəki nümayəndəliyinə ünvanlanan bəyanatında Ermənistan silahlı qüvvələri tərəfindən döşənmiş minalar nəticəsində indiyədək Azərbaycanın 300-dən çox günahsız mülki vətəndaşının və hərbi qulluqçusunun öldüyü və yaralandığı, regional əməkdaşlığa sadiqliyini qonşu Gürcüstanın timsalında sübut edən Azərbaycanın beynəlxalq hüquqa uyğun olaraq öz ərazilərində suverenliyini qorumağa çalışdığı, Xankəndi-Laçın yolunun açıq olduğu kimi faktlar sadalanıb.

Niderland-Belçika Azərbaycanlıları Koordinasiya Şurası beynəlxalq təşkilatları Azərbaycanın sülhsevər mövqeyini dəstəkləməyə və tərəflər arasında konstruktiv dialoqun təşkilinə yardım göstərməyə çağırıb.

***

Niderlandın Rotterdam şəhərində fəaliyyət göstərən Benilüks Azərbaycanlıları Konqresi ölkəmizin sülh səylərinin dərk edilməsi və dəstəklənməsi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib.

Benilüks Azərbaycanlıları Konqresi beynəlxalq təşkilatları erməni yalanlarına inanmamağa, işğaldan azad edilmiş Qarabağ bölgəsində irimiqyaslı bərpa-yenidənqurma layihələri həyata keçirməyi məqsədilə çoxmilyardlı sərmayələr yatıran Azərbaycanın sülhsevər mövqeyini əməli şəkildə dəstəkləməyə çağırıb.

***

Sidney şəhərində fəaliyyət göstərən Avstraliya Azərbaycanlıları Assosiasiyası da beynəlxalq ictimaiyyətə müraciət edib.

Assosiasiyanın adından Birləşmiş Millətlər Təşkilatının Avstraliyanın Yeni Cənubi Uels ştatındakı nümayəndəliyinə ünvanlanan bəyanatda Azərbaycan əsilli avstraliyalılar Ermənistanda mövcud olan revanşist əhval-ruhiyyəli qüvvələrin və erməni diasporunun yolverilməz əməlləri nəticəsində Cənubi Qafqaz regionunda yaranmış mövcud vəziyyətdən dərin narahatlıq hissi keçirdiklərini qeyd edir, beynəlxalq təşkilatları erməni yalanlarına inanmamağa, Azərbaycanın sülhsevər mövqeyini əməli şəkildə dəstəkləməyə çağırıb.

*"Xalq qəzeti"*

# Baş prokuror hərbi qulluqçularla görüşüb



**Dünən Baş prokuror Kamran Əliyev azad olunmuş ərazilərdə dislokasiya olunan bir neçə hərbi hissəni ziyarət edib, yaradılan şəraitlə tanışlıqdan sonra şəxsi heyətlə görüş keçirilib.**

Görüşlər zamanı baş prokuror Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin bütün sahələri kimi hərbi sahənin də durmadan inkişaf etdiyini bildirib.



Döyüş hazırlığı və mənəvi-psixoloji vəziyyətin daha da yaxşılaşdırılması, kollektivdə münasibətlərin tələblər və nizamnamələr çərçivəsində qurulması, həmçinin şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyə olunması, nizam-intizamın, hüquq qaydalarının möhkəmləndirilməsi və digər məsələlər barədə söhbətlər aparılıb.

Sonda xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya qiymətli hədiyyələr təqdim edilib.

***

Həmin gün Kamran Əliyev Samux Rayon Prokurorluğunun inzibati binasında Samux, Daşkəsən, Kəlbəcər, Göygöl və digər rayonlardan olan vətəndaşlarla görüşüb.

Görüşdə iştirak edən 12 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, mülki xarakterli mübahisələr, habelə sosial problemlərlə bağlı qaldırdığı məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün Kamran Əliyev müvafiq göstərişlər verib.

*Qəzənfər QASIMOV,*
*"Xalq qəzeti"*

# İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının iclası

**İnformasiya Təhlükəsizliyi üzrə Koordinasiya Komissiyasının növbəti iclası Müdafiə Nazirliyində keçirilib.**



İclasdan əvvəl tədbir iştirakçıları Nazirliyinin Kibertəhlükəsizlik Əməliyyatları Mərkəzi və Hərbi Hava Qüvvələrinin yeni istifadəyə verilmiş Mərkəzi Komanda Məntəqəsinin fəaliyyəti ilə tanış olublar.

Müdafiə nazirinin birinci müavini –Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev sahə üzrə layihələrlə bağlı ətraflı məlumat verib.

Komissiyanın sədri İlqar Musayev Müdafiə Nazirliyi tərəfindən informasiya təhlükəsizliyinin təmin edilməsi istiqamətində görülmüş işləri yüksək qiymətləndirib.

Gündəliyə uyğun olaraq, Koordinasiya Komissiyasında informasiya təhlükəsizliyinə dair dövlət qurumlarından daxil olan məsələlər müzakirə olunub. Komissiyaya üzv qurumların nümayəndələrindən ibarət yaradılmış və 5 fərqli istiqamət üzrə fəaliyyət göstərən işçi qruplarda keçirilən görüşlərin nəticəsi və görülən işlərlə bağlı məlumat verilib, müvafiq qərarlar qəbul olunub.

*Q.QASIMOV, "Xalq qəzeti"*

# İqtisadi fəal əhalinin sayı

**Dövlət Statistika Komitəsindən bildirilib ki, avqustun əvvəlində ölkədə iqtisadi fəal əhalinin sayı 5 milyon 231,9 min nəfəri ötüb, onlardan 4 milyon 942,8 min nəfərini məşğul əhali təşkil edib.**

Hazırda muzdla çalışan işçilərin sayı 1 milyon 725,5 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 894,2 min nəfər, qeyri-dövlət sektorunda isə 831,3 min nəfər olub. İqtisadiyyatın neft-qaz sektorunda 31,6 min nəfər, qeyri-neft-qaz sektorunda isə 1 milyon 693,9 min nəfər çalışıb.

Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 22,9 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,5 faizi emal sənayesində, 6,3 faizi tikintidə, 3,6 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində, 2,0 faizi su təchizatı, tullantıların təmizlənməsi və emalı, 1,9 faizi mədənçıxarma sənayesində, 1,6 faizi elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələrində məşğul olub.

Xidmət sahəsində işləyənlərin 19 faizi təhsil, 18,8 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 8,4 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,5 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 5 faizi inzibati və yardımçı xidmətlərin göstərilməsi, 4,2 faizi nəqliyyat və anbar təsərrüfatı, 3,6 faizi peşə, elmi və texniki fəaliyyət, 3,1 faizi istirahət, əyləncə və incəsənət, 2,3 faizi turistlərin yerləşdirilməsi və ictimai iaşə, 2,1 faizi maliyyə və sığorta fəaliyyəti, 1,9 faizi informasiya və rabitə, 1,1 faizi daşınmaz əmlakla əlaqədar əməliyyatlar və 1,1 faizi digər sahələrdə xidmətlərin göstərilməsi sahələrində çalışıblar.

*"Xalq qəzeti"*

# Şahin Mustafayev Rusiyanın Azərbaycandakı səfirinə başsağlığı verdi

**Avqustun 17-də Azərbaycanın Baş nazirinin müavini Şahin Mustafayev Rusiya səfirliyində olub və Azərbaycan hökuməti adından Mahaçqalada yanacaqdoldurma məntəqəsində baş vermiş partlayış nəticəsində insan tələfatı ilə bağlı başsağlığı kitabına ürək sözlərini yazıb.**



Bu barədə Rusiyanın Azərbaycandakı səfirliyi məlumat yayıb.

Ş.Mustafayev Rusiyanın Azərbaycandakı səfiri Mixail Yevdokimova da başsağlığı verib, xəsarət alanların tezliklə sağalmasını diləyib.

*"Xalq qəzeti"*

# Azərbaycan “yaşıl enerji” ölkəsinə çevrilir

## Qarabağ və Şərqi Zəngəzurda 4 min MVt-dan artıq günəş, 500 MVt-dək külək enerjisi potensialı mövcuddur

**Bu gün Birləşmiş Ərəb Əmirliklərinin “Masdar”, Səudiyyə Ərəbistanı Krallığının “ACWA Power” və Çinin “Gezhouba Group” şirkətləri tərəfindən işğaldan azad edilən ərazilərimizdə “yaşıl enerji” layihələrinə investisiya yatırmağa böyük maraq göstərilir. Energetika Nazirliyinin məlumatına görə, bu barədə “yaşıl enerji” sahəsində fəaliyyət göstərən xarici şirkətlərin nümayəndələrinin Laçın rayonuna səfəri zamanı bildirilib.**



Səfər çərçivəsində Azərbaycan Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədovla keçirilən görüşdə “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2022-2026-cı illərdə “yaşıl enerji” zonasının yaradılması üzrə Tədbirlər Planı”na uyğun olaraq reallaşdırılan layihələr, həmçinin rayonun Minkənd ərazisində külək elektrik stansiyasının (KES) tikintisi üçün nəzərdə tutulan ərazilər barədə fikir mübadiləsi aparılıb. Bioenerji, enerji səmərəliliyi, binalarda günəş enerjisindən istifadə ilə əlaqədar həyata keçirilən tədbirlər barədə məlumat verilib, günəş və külək elektrik stansiyalarının qurulması ilə bağlı məsələlər müzakirə edilib.

Eyni zamanda, bərpaolunan enerji sahəsində milli kontentin yaradılmasının xüsusi maraq çəkdiyi vurğulanıb. “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı”nın icrası məqsədilə Laçın və Kəlbəcər rayonlarında külək enerjisi potensialının yüksək olduğu nəzərə alınaraq bu ərazilərdə KES-lərin tikintisinin planlaşdırıldığı bildirilib.

Yeri gəlmişkən, ötən il mart ayının 15-də Bakıda keçirilən 230 MVt gücündə “Qaradağ” Günəş Elektrik Stansiyasının təməlqoyma mərasimi çərçivəsində “Masdar” şirkəti ilə dörd anlaşma memorandumu imzalanıb. Energetika Nazirliyi ilə adıçəkilən şirkəti arasında “Dənizdə inteqrasiya edilmiş bərpaolunan enerji sahəsində əməkdaşlığa dair” Anlaşma Memorandumu dənizdə külək enerjisindən istifadə, “yaşıl hidrogen” istehsalı, karbon tutulması və saxlanılması kimi məsələlərin reallaşdırılmasını qarşıya önəmli vəzifə kimi qoyub.

Sözügedən nazirliklə şirkət arasında “Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında bərpaolunan və təmiz enerji sahəsində əməkdaşlığa dair” Anlaşma Memorandumu isə Azərbaycanın işğaldan azad edilən ərazilərində alternativ enerji mənbələrinin tətbiqi sahəsində potensial əməkdaşlıq imkanlarını müəyyənləşdirir. Sənədə əsasən, “Masdar” şirkəti sənaye həcmli külək və günəş elektrik stansiyaları, damüstü günəş elektrik sistemləri və s. kimi istiqamətlərdə investisiya imkanlarını Energetika Nazirliyi ilə koordinasiyalı şəkildə araşdırmaq niyyətindədir.

Bütün bunlarla yanaşı, “Masdar” şirkəti ilə İqtisadiyyat Nazirliyi arasında bərk məişət tullantılarından enerji istehsalı, “Azərbaycan Dəmir Yolları” QSC arasında isə bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində əməkdaşlıq üzrə anlaşma memorandumları imzalanıb.

Azərbaycanla investisiya dəyəri 225 milyon dollardan çox 230 MVt gücündə “Qaradağ” GES layihəsi üzrə əməkdaşlıq edən “Masdar” şirkəti BƏƏ, Səudiyyə Ərəbistanı, İordaniya, Misir, Mərakeş, Böyük Britaniya, ABŞ, Avstraliya, Serbiya, Hindistan, İndoneziya, Özbəkistan və bir çox başqa dövlətlərdə daxil olmaqla 40-dan çox ölkədə səmərəli fəaliyyət göstərir.

“Masdar” şirkəti 3 il ərzində Qarabağ və Şərqi Zəngəzurda bərpaolunan və təmiz enerji sahəsində bir neçə layihə həyata keçirəcək. Şirkət bu bölgədə ilk layihəsini Kəlbəcər–Laçın zonasında, gücü 100 MVt-dan çox olan KES-in tikintisi ilə başlayacaq, sonrakı layihələrin gücü isə Qarabağda 200 MVt gücündə günəş stansiyasının tikintisi olacaq.

Qlobal miqyasda bərpaolunan enerji sahəsində 8 min meqavat olmaqla, elektrik enerjisi sahəsində ümumilikdə 30 min 200 meqavat qoyuluş gücünə bərabər istehsal və 45 milyard dollar məbləğində investisiya portfelinə malik olan “ACWA Power” şirkətinin Azərbaycanın işğaldan azad edilən ərazilərində “yaşıl enerji” layihələrində əsas investorlardan biri olacağı istisna deyil. Xatırladaq ki, 2022-ci ildə bu şirkət tərəfindən Azərbaycanda 240 MVt gücündə “Xızı-Abşeron” KES-in inşasına başlanılıb. Bundan başqa, Azərbaycan Energetika Nazirliyi bu il iyunun 1-də Çinin “China Gezhouba Group Overseas Investment” şirkəti ilə ümumi gücü 2 GVT olan bərpaolunan enerji mənbələri üzrə layihələrdə əməkdaşlıq etmək məqsədilə niyyət memorandumu imzalayıb.

Göründüyü kimi, hər 3 şirkət işğaldan azad edilən ərazilərdə daha böyük investisiya layihələrinin həyata keçirilməsini nəzərdə tutub. Dövlət başçısının 2021-ci il 3 mart tarixli “Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində “Yaşıl enerji zonası”nın yaradılması ilə bağlı tədbirlər haqqında” Sərəncamına əsasən, Qarabağ və Şərqi Zəngəzurda günəş, külək, termal, geotermal və digər bərpa olunan enerji potensialının istismarı və xarici şirkətlərin bu ərazilərə cəlb edilməsi üçün əhatəli güzəşt və müxtəlif stimulların verilməsi qərara alınıb. Həmin ərazilərdə investisiyaların təşviqi mexanizmlərinin təkmilləşdirilməsi, istehsal fəaliyyəti ilə məşğul olan sahibkarlar üçün xammal və materialların idxalı ilə bağlı gömrük və vergi güzəştlərinin müəyyənləşdirilməsi məqsədilə hökumətə müvafiq tapşırıqlar verilib və bu imkanlar xarici investorlara təqdim edilib.

Son bir il ərzində Yaponiya, Cənubi Koreya, İtaliya, Türkiyə, o cümlədən Səudiyyə Ərəbistanı və Birləşmiş Ərəb Əmirlikləri ilə bu sahədə əməkdaşlıq imkanlarının müzakirəsi aparılıb.

“Yaşıl enerji zonası”nın yaradılması ilə əlaqədar hazırlanmış konsepsiyaya uyğun olaraq işğaldan azad olunan bölgələrdə günəş, külək, biokütlə, termal, geotermal və digər bərpaolunan enerji mənbələrinin istehsalı məqsədilə bölgədə külək və günəş enerji stansiyalarının, həmçinin su anbarlarında, göllərdə, kiçik çaylarda SES-lərin tikilməsi nəzərdə tutulur.

Konsepsiya sənədinə əsasən, 6 rayonda (Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Laçın və Kəlbəcər) günəş elektrik stansiyalarının tikintisi üçün, ümumi sahəsi 14 min 427 hektar və güc qoyuluşu potensialı 7214 meqavat olan, 8 perspektiv ərazi müəyyənləşdirilib. Hər bir ərazi üzrə düşən günəş radiasiyasının miqdarına görə gözlənilən enerji istehsalı dəqiqləşdirilib.

Mövcud potensial xarici investorlara təqdim edilib və onlara əlverişli sərmayə imkanları, vergi, gömrük güzəştləri müqabilində Qarabağ və Şərqi Zəngəzurda “Yaşıl enerji zonası” yaratmaq təklif olunub. Onların sırasında Səudiyyə Ərəbistanının “ACWA Power” və Birləşmiş Ərəb Əmirliklərinin “Masdar” şirkətləri cəlbedici şərtlərə uyğun olaraq növbəti mərhələdə bu ərazilərdə külək və günəş enerjisi stansiyaları inşa etməyi məqsədəuyğun hesab etdiyini açıqlayıb.

Beləliklə, “Masdar”, “ACWA Power” və “Fortescue Future Industries” şirkətləri ilə 25 QVt həcmində “yaşıl enerji” layihələri üzrə əməkdaşlıq sənədlərinin imzalanması mühüm əhəmiyyət daşıyır. Xatırladaq ki, 2040-cı ilədək mərhələli şəkildə istifadəyə verilməsi planlaşdırılan bu istehsal gücləri tələbatdan, potensial isə yaradılacaq güclərdən dəfələrlə çoxdur.

Beləliklə, Azərbaycan hökuməti bütün iqtisadi imkanları və vergi-gömrük güzəştlərini səfərbər edərək həm qlobal miqyasda ekoloji cəhətdən xüsusi üstünlüyə malik “yaşıl enerji” istehsalını artırır, ölkədə “yaşıl iqtisadiyyat” konsepsiyasının əsas hədəflərindən birinə çatmağı planlaşdırır, həm də ən strateji məqsədlərindən biri olan işğaldan azad edilmiş ərazilərini geniş xarici investisiya zonasına çevirir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

### Ekspert rəyi



**Vəkil HÜSEYNOV,**
**iqtisadçı-ekspert**

Qarabağ və Şərqi Zəngəzur alternativ və bərpaolunan enerji mənbələri ilə zəngindir. Elə buna görə də Prezident İlham Əliyev işğaldan azad olunan həmin iqtisadi rayonların “yaşıl enerji” zonasına çevrilməsini qarşıya mühüm vəzifə kimi qoyub.

Aparılan hesablamalara əsasən, düşməndən təmizlənən ərazilərdə 4 min MVt-dan artıq günəş, 500 MVt-dək külək enerjisi potensialı mövcuddur. Bu torpaqlarda aparılan quruculuq tədbirlərində “yaşıl enerji” layihələrinə daha çox üstünlük verilir. Həmçinin Qarabağ Azərbaycanda yerli su ehtiyatlarının formalaşdığı əsas rayonlardan biri kimi də tanınır.

“Yaşıl elektrik” enerjisinin istehsal güclərinin bərpası çərçivəsində Laçın, Kəlbəcər və Suqovuşanda 20,2 MVt gücündə 4 su elektrik stansiyasının (SES) bərpası başa çatdırılaraq, istismara verilib. Həkəri çayı üzərində yerləşən 8 MVt gücündə “Gülabird” SES, Tərtər rayonu ərazisində yerləşən 4,8 MVt gücündə “Suqovuşan-1” və 3 MVt “Suqovuşan-2” kiçik SES-ləri su elektrik, o cümlədən 4,4 MVt gücündə “Kəlbəcər-1” kiçik SES-ləri işğaldan azad olunan sahələrin və bu ərazilərdə gerçəkləşdirilən infrastruktur layihələrinin elektrik enerjisi ilə təmin olunmasını reallaşdırıb.

Şərqi Zəngəzurun Cəbrayıl ərazisində isə hazırda 2 mühüm əhəmiyyətə malik enerji obyekti–Araz çayı üzərində qoyuluş gücü 200 MVt olan “Xudafərin” və 80 MVt olan “Qız Qalası” SES-ləri inşa olunur. Hər iki SES-in yaxın 2 il ərzində istismara hazırlanması nəzərdə tutulur.

“Masdar”, “ACWA Power” və “Fortescue Future Industries” şirkətləri ilə 25 QVt həcmində “yaşıl enerji” layihələri üzrə əməkdaşlıq sənədlərinin imzalanması da mühüm əhəmiyyət daşıyan hadisədir. 2040-cı ilədək mərhələli şəkildə istifadəyə verilməsi planlaşdırılan bu istehsal gücləri Azərbaycanın tələbatından, potensialı isə yaradılacaq güclərdən dəfələrlə çoxdur.

# “Azəri-Mərkəzi-Şərqi” yatağında “ilk neftə” hazırlıq

### *Burada gündəlik hasilat 100 min barel olacaq*

**Xəzərin Azərbaycan sektorunda yerləşən “Azəri–Çıraq–Günəşli” (AÇG) neft-qaz yataqları blokunda tikilən “Azəri–Mərkəzi–Şərqi” (ACE) platformasının üst modulları artıq dənizdə suyun 137 metr dərinliyində quraşdırılan ACE dayaq blokunun üzərinə yerləşdirilib.**



ACE platformasından ilk neft hasilatı gələn ilin əvvəlinə planlaşdırılır. 6 milyard dollarlıq ACE layihəsi Xəzər dənizində nəhəng AÇG yatağının işlənməsinin növbəti mərhələsidir. Layihəyə yeni dəniz platforması və gündəlik 100 min barelədək hasilat gücündə digər qurğular daxildir. Layihənin istismar müddəti ərzində ümumilikdə 300 milyon barelədək neft hasil olunacağı proqnozlaşdırılır.

Qeyd edək ki, ACE layihəsi üzrə yekun investisiya qərarı 2019-cu ilin aprelində qəbul olunub. Bu, 2017-ci ildə AÇG üzrə Hasilatın Pay Bölgüsü Sazişinin (HPBS) 2049-cu ilə qədər uzadılmasından sonra həmin yataq tərəfdaşlarının ilk böyük investisiya qərarıdır. 1994-cü ildə birinci AÇG HPBS-nin imzalanmasından bəri adıçəkilən yataq sahəsinin işlənməsinə ümumilikdə 42 milyard dollar investisiya qoyulub.

ACE AÇG platformaları arasında uzaq məsafədən idarə olunan ilk platforma olacaq – ACE platforması Səngəçal terminalından, yəni uzaq məsafədən idarə ediləcək. Bunun üçün platformanın idarə mexanizmini innovativ sistem avtomatlaşdırmaları daxil olunub və Səngəçal terminalında yeni ACE idarəetmə mərkəzi inşa edilib.

Terminalda idarəetmə mərkəzi artıq tam hazırdır və işlək vəziyyətə gətirilib ki, sınaq işləri aparıla bilsin. Ümumi layihənin tikinti işləri 2019-cu ilin sonlarında başlanıb və yerli resurslardan istifadə olunmaqla ölkə daxilində həyata keçirilib. İşlərin pik dövründə Azərbaycanda tikinti işlərinə 8500 nəfərdən çox işçi cəlb edilib.

***“Xalq qəzeti”***

# Büdcə gəlirləri 7 ayda 15,5 milyard manata çatıb

## Bunun 57 faizi qeyri-neft-qaz sektorunda qazanılıb

**Azərbaycanın qeyri-neft-qaz sektorunun dinamik inkişafını bildirən rəqəmlər əldə edilməsi iqtisadiyyatın bütün sahələrində ötən illərdəki artım dinamikasının qorunub saxlanılmasının məntiqi nəticəsidir. Başqa sözlə, belə bir uğurun səbəbi makroiqtisadi sabitliyin möhkəmləndirilməsi, iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı və ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası istiqamətində nəzərdə tutulan tədbirlərin ardıcıl həyata keçirilməsidir.**




Hazırda ölkəmizdə ÜDM istehsalının böyük bir hissəsinin sənayenin payına düşməsi uğurlu sənayeləşmə siyasəti sayəsində mümkün olub. Sənaye parklarının fəaliyyəti, həmin zonalarda yeni sənaye müəssisələrinin yaradılması, rəqabətqabiliyyətli və ixracyönümlü yeni məhsul istehsalının təşkili, bu işə investorların cəlb olunması kimi məsələlər hökumətin daim diqqət mərkəzində saxlanılır və bu, müsbət göstəricilərlə müşahidə edilib. Azərbaycanda lazım olan bütün istehsal sahələrinin yaradılması, yeni investisiyalar cəlb edilməsi üçün gözəl biznes mühiti, siyasi sabitlik, xalq–iqtidar birliyi, milli təhlükəsizlik təmin edilib. Əlverişli coğrafi yerləşmə, infrastruktur, hazırlıqlı peşəkar kadrlar, ixrac bazarları, qonşu ölkələrlə yaxşı işgüzar münasibətlər var.

Sənaye zonaları və aqroparkların təşkilküllü, belə demək mümkünsə, bax, bu cür əlverişli mühitin məhsuludur. Bu müəssisələrdə sahibkarlar üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaratmaq üçün dövlət tərəfindən müxtəlif dəstək tədbirləri mövcuddur. Belə ki, sahibkarlara təşkilati yardımla yanaşı, vergi və gömrük güzəştləri də edilir. Bütün bunların nəticəsidir ki, cari ilin yanvar–iyul aylarında dövlət büdcəsinin gəlirləri 15 milyard 480 milyon manat, xərcləri isə 14 milyard 63 milyon manat təşkil edib.

Dövlət Statistika Komitəsinin məlumatına görə, büdcənin icrasında yaranmış 1 milyard 416,6 milyon manatlıq profisit ümumi daxili məhsulun 2,3 faizinə bərabər olub. Daxilolmaların 33,86 faizi hüquqi şəxslərin mənfəət (gəlir), 26,26 faizi əlavə dəyər, 5,34 faizi xarici iqtisadi fəaliyyətlə bağlı vergilər, 5,27 faizi fiziki şəxslərin gəlir vergisi, 4,14 faizi aksizlər, 1,12 faizi sadələşdirilmiş, 1,99 faizi vergilərin digər növləri, 22,02 faizi isə vergi olmayan gəlirlər hesabına təmin edilib.

Yeri gəlmişkən, vergi sistemində büdcəyə daxilolmalar cari ilin ilk yarısında da yüksək göstəricilərlə diqqət çəkib. Belə ki, İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti xətti ilə ilin ilk yarısında dövlət büdcəsinə vergi daxilolmalarının məbləği ötən ilin eyni dövrü ilə müqayisədə 41,6 faiz artaraq 9 milyard 181,4 milyon manat təşkil edib. Altı aylıq vergi daxilolmalarının 5 milyard 199,4 milyon manatı qeyri-neft-qaz sektorunun hesabına formalaşıb və bir il əvvələ nisbətən 18,2 faiz çox olub.

Bu ilin I yarısında isə büdcə daxilolmalarında qeyri-neft-qaz sektorunun payı 57 faiz təşkil edib. Sektor üzrə daxilolmaların 58,8 faizi və yaxud 5 milyard 193,7 milyon manatı vergi daxilolmaları, 34,8 faizi və yaxud 3 milyard 75,5 milyon manatı gömrük rüsumları və idxala vergi daxilolmaları, 4,5 faizi və yaxud 393,9 milyon manatı büdcə təşkilatlarının ödənişli xidmətlərindən daxilolmalar, 0,2 faizi və yaxud 16 milyon manatı dövlət əmlakının icarəyə verilməsindən daxilolmalar, 1,7 faizi və yaxud 152,1 milyon manatı isə sair gəlirlər olub.

Beləliklə, iqtisadiyyatda şəffaflaşmanın artması, “kölgə iqtisadiyyatı”nın miqyasının azaldılması, biznes fəaliyyətinin leqallaşdırılması vergi daxilolmalarının dinamik artımı ilə nəticələnib.

***“Xalq qəzeti”***

**"Xalq TV"-nin qonağı**

# "Koçaryan, Ohanyan, Nabokix, Çitçyan kimi Xocalı qatilləri axtarışdadır"

## Müsahibimiz Azərbaycan Respublikası Hərbi Prokurorluğu Xüsusi istintaq şöbəsinin rəisi, baş ədliyyə müşaviri Emil Tağıyevdir

**BMT Təhlükəsizlik Şurasında Ermənistanın əsassız iddiaları üzrə keçirilən müzakirələrlə yanaşı, avqustun 11-də Şuşa şəhərində kütləvi məzarlığın aşkarlanması ölkə gündəminin ən çox müzakirə olunan məsələlərindən biridir. Aşkarlanan məzarlıq Ermənistan silahlı qüvvələrinin və Qarabağdakı qanunsuz hərbi dəstələrin 1990-cı illərin əvvəllərində xalqımıza qarşı törətdiyi cinayətlərin yeni səhifəsinin açılması deməkdir. Prezident İlham Əliyevin sərəncamı ilə yaradılmış və tərkibinə aidiyyatı qurumların əməkdaşlarının daxil olduğu Dövlət Komissiyasının üzvləri kütləvi məzarlığın aşkarlandığı ərazidə zəruri axtarış işləri aparıblar.**

Azərbaycan Respublikası Hərbi Prokurorluğunun Xüsusi istintaq şöbəsinin rəisi, baş ədliyyə müşaviri Emil Tağıyev bununla bağlı "Xalq qəzeti"nin suallarını cavablandırıb.

**– Əvvəlcə, aşkarlanan kütləvi məzarlıq barədə məlumat verməyinizi xahiş edirik. Bununla bağlı qazıntı işləri nə zaman həyata keçirilib və məzarlıq Şuşanın hansı ərazisində yerləşir?**

– Vətən müharibəsindən sonra itkin düşdüyü hesab olunan şəxslərin işğaldan azad edilmiş ərazilərdə meyit qalıqlarının axtarışı və tapılması Prezident İlham Əliyevin daim diqqət mərkəzində olub. Dövlət başçımız istər xarici ölkələrə səfərləri zamanı, istərsə də beynəlxalq təşkilatların rəhbərləri ilə keçirdiyi görüşlərdə, o cümlədən Brüssel formatında aparılan danışıqlarda ölkəmiz üçün prioritet məsələlərdən birinin məhz itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi olduğunu qeyd edib.

2021-ci ildə BMT Baş Assambleyasında çıxış edən Prezident İlham Əliyev, həmçinin itkin düşmüş şəxslərin taleyinin müəyyən edilməsi, o cümlədən onların basdırıldığı kütləvi məzarlığın tapılması ilə bağlı da məsələyə toxunub. Məhz dövlət başçımızın tapşırığına əsasən, işğaldan azad edilmiş ərazilərdə Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərin meyit qalıqlarının axtarışı prosesinə start verilib. Həmin axtarış işlərindən biri də Şuşa şəhərindəki keçmiş həbsxananın ərazisində aparılıb. Axtarış tədbirləri may ayından başlanıb və 3 ay davam edib.

**– Orada ehtimal edilən neçə insan qalıqları var?**

– Bu günədək Şuşa həbsxanasının ərazisində aparılan axtarış tədbirləri nəticəsində kütləvi məzarlıqdan, ən azı, 31 şəxsə aid insan meyit qalıqları aşkar edilib.

**– Ekspertiza nəticəsində insan qalıqlarının kimlərə aid olduğunu müəyyən etmək mümkündürmü?**

– Təbii ki. İstər Şuşa həbsxanasında, istərsə də digər ərazilərdə aşkar edilən hər bir insan meyit qalıqları ilə bağlı tədqiqat işləri aparılır. Yəni, onlar məhkəmə tibbi kriminalistik ekspertizası ilə yanaşı, məhkəmə molekulyar-genetik ekspertizasından (DNT) keçirilir. Məhkəmə molekulyar-genetik ekspertizasının nəticəsinə əsasən, həmin meyit qalıqlarının Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərdən kimlərə məxsus olması dəqiq müəyyən ediləcək.

**– İstintaq Şuşa həbsxanası ərazisində qalıqları aşkarlanan şəxslərin hansı şəraitdə və dövrdə qətlə yetirildiyi qənaətindədir?**

– Qeyd etdiyim kimi, onların qətlə yetirilmə tarixi, qalıqların kimə məxsus olması və digər xüsusatlar, təbii ki, məhkəmə-tibbi tədqiqatlardan sonra bilinəcək. Amma kütləvi məzarlıqların aşkar edildiyi ərazilərdə insan meyit qalıqlarına aid sümüklərə baxış keçirilən zaman, həmçinin Respublika Hərbi Prokurorluğunda bununla bağlı istintaq olunan cinayət işinin materiallarından və cinayət işinin materialları üzrə toplanmış sübutlardan məlum olur ki, həmin şəxslər Şuşa həbsxanasında saxlanıldıqları müddətdə qəddarcasına, yəni, döyülməklə, işgəncə verilməklə, başları kəsilməklə və digər vəhşi üsullardan istifadə edilməklə qətlə yetiriliblər. Məsələn, üzərlərinə itlər buraxılıb, halsız, yaralı vəziyyətdə olan soydaşlarımız yem kimi donuzların qarşısına atılıb. Elə Şuşa həbsxanasının ərazisində də orada saxlanılan digər soydaşlarımıza torpağı qazdırmaqla basdırıblar.

**– Respublika Hərbi Prokurorluğunda aparılan istintaq nəticəsində bu cinayətləri törədənlərin kimliyini müəyyən etmək mümkün olubmu? Onların adlarını açıqlaya bilərsinizmi?**

– 1988-ci ildən başlayaraq, Qarabağdakı qanunsuz erməni silahlı birləşmələri və Ermənistan silahlı qüvvələri tərəfindən yerli azərbaycanlı əhaliyə qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə cinayətlərinin araşdırılması məqsədilə 2003-cü il dekabrın 18-də baş prokuror, daxili işlər və milli təhlükəsizlik nazirlərinin birgə əmri ilə istintaq-əməliyyat qrupu yaradılmış və 2005-ci il mayın 5-də Azərbaycan Respublikasının hərbi prokuroru Xanlar Vəliyevin təşəbbüsü ilə həmin istintaq-əməliyyat qrupu tərəfindən araşdırılması aparılan cinayət işinin istintaqı Respublika Hərbi Prokurorluğuna tapşırılıb. Cinayət işinin məhz Respublika Hərbi Prokurorluğunda araşdırıldığı müddətdə işin həcminin böyüklüyü, araşdırılmalı olan xüsusatların, o cümlədən zərərçəkmiş, təqsirləndirilən, şübhəli şəxslərin sayının çoxluğu nəzərə alınaraq, həmin cinayət işinin Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, beynəlxalq hüquq normalarına, Cinayət Məcəlləsinin və Cinayət-Prosessual Məcəllənin tələblərinə uyğun aparılması məqsədilə iş üzrə beş əsas istiqamət müəyyən edilib. Bunlar Azərbaycan xalqına qarşı Meşəli, Xocalı, Cəmilli, Qaradağlı və digər yaşayış məntəqələrində törədilmiş soyqırımları, əsir düşmüş və girov götürülmüş şəxslərə qarşı işgəncə, terror, dövlətə və vətəndaşlara vurulmuş ziyan və müasir dövrdə milli ədavət və düşmənçilik niyyətilə baş vermiş xüsusilə ağır cinayətlər kimi istiqamətlərdir.

Cinayət işinin istintaqı zamanı 305 şəxsin Cinayət Məcəlləsinin soyqırımı, deportasiya, işgəncə, müharibə adət və qanunlarını pozma və digər maddələrində nəzərdə tutulan cinayətləri törətmələri müəyyən edildiyindən həmin şəxslər qeyd etdiyim maddələrlə təqsirləndirilən şəxs qismində cəlb olunmuş, barələrində məhkəmələr tərəfindən həbs qətimkan tədbiri seçilib və axtarışlarının təmin edilməsindən ötrü müvafiq sənədlər aidiyyatı qurumlara göndərilib. Axtarışa verilmiş adamların arasında Seyran Ohanyan, Robert Koçaryan, Yevgeni Nabokix, Valeri Çitçyan kimi Xocalı qatilləri də var. Onu da qeyd etmək istəyirəm ki, axtarışa verilmiş şəxslərdən Ermənistan Respublikasının 4 vətəndaşı – Lüdvik Mkrtıçyan, Alyoşa Xosrovyan, Karen Qazaryan və Arsen Baqdasaryan Azərbaycan Respublikasının ərazisində təxribat, terror, əsir və girovluqda saxlanılan azərbaycanlılara qarşı işgəncə və digər cinayətlər törətmələri müəyyən edildiyindən həmin şəxslər cinayət məsuliyyətinə cəlb edilmiş, barələrində olan cinayət işləri üzrə ibtidai istintaq yekunlaşdırılaraq, baxılması üçün aidiyyəti məhkəmələrə göndərilib. Məhkəmələr tərəfindən hər bir şəxs barəsində müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmalarına dair hökmlər çıxarılıb.

Yeri gəlmişkən, Meşəli soyqırımında iştirak edən şəxslərdən biri Vaqif Xaçatryanın iştirakı ilə cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir. Qısa müddətdə həmin cinayət işinin onun barəsində olan hissəsi yekunlaşdırılaraq baxılması üçün məhkəmə məsuliyyətinə veriləcək.



**– Xaçatryanın cinayət işi üzrə hansı yenilik var?**

– Hazırda istintaq davam edir. Təbii ki, yenilik var. Meşəli soyqırımında və digər cinayətlərdə onun iştirakı müəyyən olunub. Hazırda intensiv istintaq hərəkətləri davam etdirilir. Yəqin ki, iş məhkəmə baxışına keçəndən sonra bu barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

**– O, özünü təqsirli bilirmi?**

– Bu, istintaq sirridir. Yalnız iş yekunlaşdırıldıqdan sonra açıqlana biləcək.

**– Məlumdur ki, Birinci Qarabağ müharibəsi zamanı 4 minədək Azərbaycan vətəndaşı itkin düşüb. Kütləvi məzarlıqların aşkarlanması ilə itkin düşmüş şəxslərdən daha bir qisminin taleyinə aydınlıq gətirildiyini demək mümkündürmü?**

– 1988-ci ildən başlayaraq, ermənilərin törətdikləri cinayətlərin sayı-hesabı yoxdur. Həmin dövrdən etibarən ermənilər tərəfindən yalnız milli mənsubiyyətinə görə, 20 minə yaxın azərbaycanlı qətlə yetirilib, 19 mindən artıq şəxs yaralanıb, 877 yaşayış məntəqəsi qarət edilərək dağıdılıb, yandırılıb. 1 milyondan artıq əhali qaçqın və məcburi köçkünə çevrilib. Həmin dövrdə 1480 azərbaycanlı əsirlikdə saxlanıldıqları müddətdə işgəncə və digər qəddar, qeyri-insani rəftara məruz qalıb, 3890 nəfər itkin düşüb. İtkin düşənlərin işğaldan azad edilmiş ərazilərdə axtarışı davam etdirilir. Yəni, insan sümük qalıqlarının müəyyən hissəsi tapılıb, qalan hissəsinin də axtarışı istiqamətində işlər görülür.

**– İndiyədək işğaldan azad edilmiş Ağdam rayonunun Sarıcalı, Şuşa rayonunun Daşaltı, Xocavənd rayonunun Edilli, Xocalı rayonunun Fərrux, Füzuli rayonunun Yuxarı Seyidəhmədli, Kəlbəcər rayonunun Başlıbel kəndlərində və digər yaşayış məntəqələrində kütləvi məzarlıqlar aşkar edilib. Bunlarla bağlı nələri qeyd edə bilərsiniz?**

– Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə aparılan axtarış tədbirləri nəticəsində sadaladığınız yaşayış məntəqələrində aşkar edilmiş kütləvi məzarlıqlardan, ümumilikdə, 480-dən çox insan meyiti qalıqları aşkar edilərək götürülüb. Həmin qalıqların Birinci Qarabağ müharibəsi dövründə itkin düşmüş şəxslərlə eyniləşdirilməsinin aparılması məqsədilə məhkəmə tibbi kriminalistik ekspertizası ilə yanaşı, 300-ə yaxın məhkəmə molekulyar-genetik ekspertizası təyin edilib. Hazırda müəyyən müsbət nəticələrimiz var. Bununla bağlı yaxın günlərdə ictimaiyyətə əlavə məlumat veriləcək.

*Müsahibəni apardı:*
*Səxavət HƏMİD,*
*"Xalq qəzeti"*

# Vardanyan üçün "elegiya"

## Rubenin Qarabağdan rədd olacağı gün uzaqda deyil

**Ermənistan hakimiyyəti özünün təşəbbüsü ilə avqustun 16-da keçirilmiş BMT-nin Təhlükəsizlik Şurasının iclasındakı fiaskonu susqunluqla qarşılasa da, Qarabağdakı separatçı rejimdən ağlaşma sədası kəsilmir. Əslində, bu səslər iclasdan əvvəl də eşidilirdi. Qondarma rejimin lideri Arayik Aratyunyanın facebook səhifəsində yazdıqlarına ümidsizlik və yalvarış motivləri hakim kəsilmişdi. İndi Arayikin yerini digər separatçı – vaxtilə xuntada dövlət naziri oyuncaq postunda işləmiş, hazırda ictimai hərəkat yaradaraq "dirəniş göstərən" Ruben Vardanyan tutub.**



R.Vardanyan bildirib ki, BMT Təhlükəsizlik Şurasının müzakirəsi, guya, Laçın dəhlizinin açılması üçün kollektiv çağırış idi. Lakin Azərbaycan bu çağırışa məhəl qoymasa, nəyin baş verəcəyi barədə heç bir söz yoxdur. Deməli, Ruben məsələləri qarışdırır. İclas beynəlxalq dairələrin erməni avantürası üçün iş görürmüş kimi qoyduğu minnətdir. İndi həmin dairələr deyəcəklər ki, əllərindən nə gəldi etdilər, amma alınmadı. Yəni, onsuz da ölkəmizə qarşı sanksiyanın, yaxud qətnamənin çıxarılması real deyildi. Bunu dərk etmək isə Vardanyanın dərrakəsindən kənar hadisədir.

Ruben özünün sosial şəbəkə hesabında onu da yazıb ki, BMT-dəki çıxışlar Qarabağda vəziyyətin ciddiliyinə və gərginliyinə adekvat deyildi. Görünür, o, xarici ölkə təmsilçilərinin əllərinə dəsmal götürüb ağlaşma qurmalarını gözləyirmiş, amma, bu, baş vermədiyindən məyusluqla üzləşib. Ruben düz müşahidə aparıb. Çıxışların əksəriyyəti bir-birinin təkrarına çevrildi. Başqa nə olmalı idi ki?..

Əlbəttə, R.Vardanyan Fransanın nümayəndəsinin nitqinin daha aydın olduğunu düz sezib. Çünki ölkə aşkar ermənipərəst mövqe tutmaqdadır. Mozambikə gəldikdə isə Ermənistana yalnız elə belə geridəqalmış ölkələr dəstək göstərə bilərlər. Hər halda, Rubenə də yaxşı məlumdur ki, Mozambikin dünyadan xəbəri yoxdur. Elə dünyanın da Mozambikdən.

R.Vardanyan məyusluq hissi ilə bildirir ki, BMT TŞ-nin iclasında Qarabağda etnik təmizləmənin real təhlükəsindən heç bir söz getmədi. Onu ən çox məyus edən isə beynəlxalq vasitəçilərin köməyilə Bakı – Xankəndi dialoqu kimi cəncəl məsələdən də söhbətin açılmaması oldu. "Yalnız Rusiya tərəfi dialoqa eyham vurdu, təbii ki, beynəlxalq mexanizmlərdən danışmadı".

Vardanyan da təsdiqləyir ki, iclasda Laçın yolundan istifadə məsələsinin mütləqliyi ritorikası dəstək qazanmadı. "Əvəzində bəzi ölkələrin nümayəndələri başqa yollardan istifadəyə çağırıb, bəziləri isə Ağdam yolundan istifadəni qeyd ediblər. Bunun səbəblərindən biri də Ermənistan tərəfinin nümayəndələrinin bu mövzuda mandatlarının olmadığını və aydın əks-arqumentlər təqdim etmədiklərini bildirməsi, Azərbaycan tərəfinin isə tez bir zamanda bunu gündəmə gətirməsidir". Deməli, R.Vardanyan açıq tərzdə bildirməsə də, Azərbaycan diplomatiyasının peşəkarlığını etiraf edir. Hərçənd, hazırda o, əsgər və zabitlərimizin peşəkarlığını öz üzərində hiss etməli olduğunun, o günə doğru getdiyinin fərqində deyil…

Ruben Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın BMT-nin iclasındakı çıxışını bəyənsə də, onda öz aləmində səhv tutmağı da yaddan çıxarmayıb. Sən demə, Mirzoyan çıxışına Azərbaycan Prezidenti İlham Əliyevin fikirlərindən də nələrisə əlavə etməli idi. Vardanyanın düşüncəsinə görə, ölkəmizin liderinin nitqlərində, guya, ermənilərə qarşı soyqırımının təzahürləri var. Deyəsən, separatçı beyinqanamasından əziyyət çəkir. Əks halda, bu qədər cəfəng iddiaya düşməzdi.

Vardanyanı əsəbləşdirən daha bir məqam isə Avropa İttifaqının neytral tərəf kimi çıxış etməsidir. Sən demə, qurum Ermənistanı alovlu müdafiə etməli imiş. Çox güman, Ruben bu fikri işlədərkən, Aİ-nin Fransanın patronajlığı ilə hərəkət etməsi reallığına fokuslanır. Əlbəttə, belə düşüncə siyasətdəki naşılığın göstəricisidir. Hətta, deyərdim ki, avamlığın.

"Yekun olaraq deyə bilərəm ki, biz real hərəkətlərdən danışmasaq, Bakı beynəlxalq çağırışlara qulaq asmayacaq və dəhlizin açılmasına razı olmayacaq. Qarabağda hadisələrin təhlükəli inkişafının qarşısını almaq, Azərbaycana qarşı aydın hərəkətlər üçün ardıcıl olmaq və yorulmadan çalışmaq lazımdır", – deyə R.Vardanyan fikrini tamamlayıb.

Əlbəttə, Vardanyanın ardıcıl fəaliyyət göstərmək, tədbir görmək dedikdə konkret nəyi nəzərdə tutduğunu söyləmək çətindir. Həm də ona görə ki, istər Ermənistan rəhbərliyinin, istərsə də Qarabağdakı separatçı rejimin gedişləri tam şəkildə tükənib. Bunun fonunda separatçılıq çənbərinin hər ötən gün daraldığını görürük. Yəni, bir gün Azərbaycan əsgəri həmin bu Vardanyanı tutub saxlasa, heç təəccüblənməyəcəyik. Yaxşı olar ki, Ruben BMT fiaskosundan sonra, ilk növbədə, bu barədə düşünsün. Əlbəttə, Qarabağdan rədd olub getməyi də düşünsə, özü üçün daha faydalı olar.

*Ə.RÜSTƏMOV, "Xalq qəzeti"*

## Maksim Quen: "Laçın" sərhəd-buraxılış məntəqəsində yoxlamalar həm qanuni, həm də zəruridir"



**"Laçın yolunun "blokadası" ilə bağlı bəyanatlar reallığa uyğun gəlmir". Bunu fransız tarixçi və politoloq Maksim Quen deyib.**

"Laçın yolunda nəqliyyatın hərəkəti dayanmayıb. Yoxlama qanuni və Rusiya "sülhməramlıları"nın himayəsi altında həyata keçirilən silah qaçaqmalçılığının qarşısının alınması kontekstində zəruridir", – o, vurğulayıb. M.Quen əlavə edib ki, Ağdam–Xankəndi yolunu məhz separatçılar bağlayıblar.

Onun sözlərinə görə, belə qərəzli bəyanatları, təəssüf ki, təkcə Fransanın deyil, həm də çox vaxt Aİ-nin yüksək səviyyəli nümayəndələri verirlər: "Aİ və Fransa qorxur ki, Nikol Paşinyan ölkəsində ictimai rəy qarşısında simasını itirə və onun yerini Robert Köçəryan və ya onun kimiləri əvəz edə bilər".

*"Xalq qəzeti"*

# Arazın o tayından çəkilmiş "qırmızı xətlər"

**Azərbaycan 44 günlük Vətən müharibəsində qalib gələrək işğalçıları öz ərazilərindən qovduqdan sonra dərhal bütün sahələrdə bərpa və yenidənqurma işlərinə start verildi. Həmin sahələrdən biri də nəqliyyat infrastrukturunun bərpası, yenidən qurulması və genişləndirilməsi idi.**

Nəqliyyat infrastrukturunun bir hissəsini Azərbaycanın qərb bölgələri və ya Şərqi Zəngəzur bölgəsi ilə Naxçıvan Muxtar Respublikası arasında Ermənistanın cənub-şərqindən, Qərbi Zəngəzurdan keçən və hələ sovetlər dövründə mövcud olmuş və məlum düşmənlərimiz tərəfindən dağıdılmış dəmir yolu və avtomobil yolları təşkil edir. Azərbaycanda ölkənin qərb bölgəsi ilə Naxçıvanı birləşdirəcək nəqliyyat infrastrukturu Zəngəzur dəhlizi kimi qeyd edilir.

Həmin bölgədə nəqliyyat infrastrukturunun bərpa edilməsi məsələsi Azərbaycan Respublikası, Rusiya Federasiyası prezidentləri və Ermənistanın baş nazirinin imzaladığı 10 noyabr 2020-ci il tarixli üçtərəfli atəşkəs haqqında Bəyanatın 9-cu maddəsində öz əksini tapmışdır. Bununla belə kapitulyasiya aktı imzalandığı gündən indiyə kimi məğlub Ermənistan Qərbi Zəngəzurda nəqliyyat dəhlizinin açılmasına müxtəlif bəhanələrlə, ilk növbədə, dəhliz anlayışından çıxış edərək, razılıq verməmişdir. İran İslam Respublikası da Zəngəzur dəhlizi məsələsində ermənistanla eyni mövqedən çıxış etməklə bu yolun açılmasını ciddi əngəlləyir.

Bu barədə danışarkən əvvəlcə qeyd etmək lazımdır ki, İran İslam Respublikası Azərbaycanın apardığı 44 günlük Vətən müharibəsinə və həmin müharibənin gedişində qazandığı uğurlara və qələbəyə məyusluq hissi ilə yanaşmışdır. İranın Vətən müharibəsinin ilk yarısında sərgilədiyi ictimai, diplomatik yanaşma və döyüşlərin gedişinə ciddi təsir göstərə biləcək praktiki əməllərinə deyil, Azərbaycan ordusunun sərhəd zonasının 132 kilometrlik hissəsinin işğaldan azad edilməsindən sonra sərgilədiyi qeyri-məntiqi və qərəzli mövqe qonşuluq prinsipinə uyğun deyil.

Azərbaycan ordusu müharibənin 26-cı günü, 22 oktyabr 2020-ci il tarixində Azərbaycan-İran sərhəddinin qeyd edilən hissəsini düşməndən tamamilə azad etdi. Oktyabr ayının 23-ü, müharibənin 27-ci günü, İran Silahlı Qüvvələrinin baş sözçüsü xəbərdarlıq edərək hər cür həmləyə və təhdidə qarşı sərt cavab verəcəklərini elan etdi. İran ərazisinə kimin hücum edəcəyi və təhdid edəcəyi məlum deyildi. Azərbaycan öz ərazilərini işğaldan azad etməklə, Ermənistan isə Azərbaycanın irəliləməsinə mane olmağa çalışmaqla məşğul idi. Bununla belə 23 oktyabr İran–Azərbaycan münasibətlərində qonşu ölkənin



məlum olmayan strategiyasına uyğun olaraq diplomatik gərginlik mərhələsinin başlanğıcı günüdür.

Oktyabr ayının 25-i, müharibənin 29-cu günü Qubadlı şəhəri azad edildikdən, yəni Azərbaycan ordusu Ermənistanla sərhəd bölgəsinə çıxışını genişləndirdikdən sonra İslam İnqilab Keşikçiləri Korpusunun (SEPAH) Quru qoşunları komandiri bəyanat yayaraq, sərhəddə (Ermənistan sərhəddini nəzərdə tuturdu) heç bir dəyişikliyi qəbul etməyəcəyini və sərhədlərin toxunulmazlığının İranın "qırmızı xətti" olduğunu elan etdi. İran zahirən beynəlxalq hüququn tanınmayan müdafiəçisi kimi çıxış etdiyini, əslində isə Ermənistanın müdafəçisi olduğunu və Azərbaycana xəbərdarlıq etdiyini göstərirdi.

Bu, hərbi yolla həll edilməkdə olan Ermənstan–Azərbaycan münaqişəsində İranın tutduğu həqiqi mövqeyin – Ermənistanın işğalçı, təcavüzkar siyasətini 30 il ərzində bütün vasitələrlə dəstəklədiyini davam etdirməsinin elanı idi. Yəni İran Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının nəinki tərəfdarı, eləcə də əsas sponsoru qismində yenə də çıxış etməkdə olduğunu nümayiş etdirirdi. Deməli, İran Azərbaycan ərazilərinin işğalda qalmasında maraqlı, Azərbaycanın öz ərazilərini işğaldan azad etməsində, ərazi bütövlüyünü, suverenliyini təmin etməkdə maraqlı olmadığını göstərirdi. Çünki Ermənistan Azərbaycana hərbi təcavüz edərək onun ərazilərini işğal edərkən İran beynəlxalq hüququn nə dediyini unudaraq qırmızı xəttdən danışmırdı.

Bunun ardınca Azərbaycandan İrana qarşı uydurma təhdidlərin olduğunu, sərhədə yaxın ərazidə təkfirçilərin və sionistlərin mövcudluğu kimi sərsəm iddiaları bəhanə edərək, ölkənin şimal-qərb regionunda –Cənubi Azərbaycanın Şimali Azərbaycanla sərhəd bölgəsində hərbi hava qüvvələrinin gücləndirildiyi (27 oktyabr), quru qoşun hissələrinin sərhəddə yerləşdirildiyi (30 oktyabr) elan edildi. Şuşanın azad edilməsi isə İranı qəzəbləndirdi. Sanki, hansısa xarici dövlət Azərbaycan ərazisindən İrana hücum etməyə hazırlaşırmış və İran da ona qarşı geniş hazırlıq işləri görürdü.

Şuşa azad edildikdən (8 noyabr) sonra Azərbaycanın Vətən müharibəsində qələbəsini həzm edə bilməyən İran tərəfi düşmənçilik mövqeyini yeni iftira və böhtanlarla ifadə edərək Azərbaycana qarşı siyasətinin mahiyyətini gizlədə bilmirdi. Noyabr ayının 9-da İran mediasında səsləndirilən fikirlər həmin ölkənin Azərbaycan siyasətinin gələcək istiqamət və məqsədlərini aydın şəkidə nümayiş etdirirdi. Həmin fikirləri aşağıdakı kimi qruplaşdırmaq olar:

1. Cənubi azərbaycanlıların hadisələrə, xüsusən də Türkiyənin bölgədə mövqeyinə hakimiyyətdən fərqli münasibətlərinin doğurduğu narahatlıq. Cənubi azərbaycanlılar, guya, Türkiyənin Xəzər dənizinə çıxması və İranın təcrid olunmasını dəstəkləyirlər.

2. Guya, kimlərsə İranın siyasi sisteminə qarşı planlar hazırlayır, ona görə İran sistemə qarşı ən kiçik tərpənişi belə qəbul etməyəcəyini elan edir.

3. Guya, hansı qüvvələrsə İrana təcavüz planı hazırlayır, ona görə Şimal Hərbi Dairəsinin hərbi hava qüvvəlırinin komandanı heç kimin İrana təcavüz etməsinə icazə verməyəcəklərini bəyan edir.

4. Guya, İran kiminsə ölkənin hansısa bölgəsni işğal etməsini planlaşdırdığını və separatizmin gücləndiyini gördüyü üçün Azərbaycanda səfirinin dili ilə işğalçılıq və separatizmi özünün qırmızı xətti elan edir.

Göründüyü kimi, İran Azərbaycanın Vətən müharibəsində hərbi uğurları və parlaq qələbəsini İslam rejiminin sonu, İrana təcavüzün və onun ərazisinin bir hissəsinin işğal edilə biləcəyinin başlanğıcı kimi dəyərləndirərək artıq ictimai fikirdə Azərbaycandan gələ biləcək böyük təhlükə haqqında geniş rəy yaratmağa başlamışdır. Burada ilk gündən diqqəti cəlb edən əsas məqam İran hakimiyyətinin öz anti-Azərbaycan mövqeyini Cənubi azərbaycanlıların Vətən müharibəsinə müsbət yanaşması və uydurma xarici təhlükənin Güneyi hədəf alması ilə əsaslandırmağa çalışması idi.

Azərbaycanın Vətən müharibəsində qələbəsinə qarşı İran özünün düşmənçilik mövqeyini pərdələmək üçü, guya, ona qarşı təhlükənin regionda təkfirçi və sionist qüvvələrin mövcudluğundan irəli gəlməsi kimi son dərəcə əsassız və hətta gülünc iddialarla əsaslandırmağa çalışırdı. Bütün qonşu islam ölkələrinin daxili işlərinə qarışan İslam respublikası əhalisinin əksəriyyəti müsəlman və şiə məzhəbi ardıcılı olan Azərbaycan dövləti ətrafında qırmızı cizgilər çəkməklə məşğul idi. İran əvvəlcə Azərbaycana Ermənistanın təsbit edilməmiş, delimitasiya və demarkasiya olunmamış sərhədini qırmızı rəngə boyadığını elan etdi. Sonra isə subyekti göstərilməyən işğalçılığı, eləcə də çoğrafiyası və subyekti elan edilməyən separatizmi qırmızı xətt elan etdi.

Beləliklə, İranın gələcək siyasi, hərbi və ideoloji fəaliyyətinin istiqamətini Azərbaycan ətrafına çəkdiyi, zahirən ölkələrin və dövlətlərin beynəlxalq hüquqa əsaslanan suverenlik və ərazi bütövlüyünün təmin olunmasına, əslində isə Azərbaycanın xarici siyasətinə xas olmayan, lakin gələcəkdə ona qarşı istifadə edilə biləcək sahələrdə 3 qırmızı xətt (Ermənistanın sərhədləri, işğalçılıq, separatizm) müəyyən etdi.

***Vidadi MUSTAVAYEV,***
***AMEA Şərqşünaslıq İnstitutu İran Şöbəsinin müdiri, professor***

# Avstraliyada güneylilərin "Elit mükafatı"

**Avstraliyada Güney azərbaycanlılarını bir araya gətirən "Victora Varliq Group" qeyri-kommersiya mədəniyyət birliyinin təşəbbüsü ilə Azərbaycan Elit Mükafatı təsis olunub.**



Diasporla İş üzrə Dövlət Komitəsindən verilən məlumata görə, birliyin sədri İbrahim Aslan qeyd edib ki, mükafat ömrünü xaricdəki Azərbaycan icmasının inkişaf, innovasiya və mükəmməlliyinin təşviqinə fədakarcasına, uzaqgörənliklə həsr edən və cəmiyyətə təsiretmə qabiliyyətinə malik görkəmli şəxslərin tanıdılmasına xidmət edir.

Birlik bu yolla Azərbaycanın parlaq və rəngarəng nailiyyətlərini Avstraliyada və onun hüdudlarından kənarda nümayiş etdirmək, qürbətdə yaşayan görkəmli soydaşlarımızın bilik, yaradıcılıq və müsbət dəyişikliklərə yorulmadan can atmalarını təqdim etmək və gələcək nəsilləri öz səylərində yüksək amallara və nəhəngliyə nail olmağa ruhlandırmaq məqsədi daşıyır.

Mükafat elm, ədəbiyyat, mədəniyyət, iqtisadiyyat, texnologiya, səhiyyə və sair sahələrə verilən misilsiz töhfələrə əsasən təqdim ediləcək. Namizədlər müvafiq sahələr üzrə ictimaiyyət və nüfuzlu ekspertlər tərəfindən irəli sürülə bilər. Hər kateqoriya üzrə yaradılacaq münsiflər heyəti nominasiyaları hərtərəfli nəzərdən keçirəcək. 2023-cü il üçün namizədlik prosesi və mükafat kateqoriyaları ilə bağlı ətraflı məlumat birliyin rəsmi sosial şəbəkə səhifəsində, eləcə də müxtəlif KİV-lərdə elan olunacaq.

***R.GƏNCƏLİ***

# Parsabadda su böhranı

**Ərdəbil əyalətinin Parsabad (Muğan) şəhərində əkinçilər etiraz aksiyası keçiriblər. Bu barədə etirazçılar sosial media kanallarında paylaşım ediblər.**



Avqustun 16-da Təbii Sərvətlər İdarəsinin qarşısına toplaşan narazı fermerlər suyun kəsilməsi səbəbindən əkin və bağ sahələrinin susuzluqdan quruduğuna etirazlarını bildiriblər. Onlar bundan əvvəl hökumət nümayəndələri və yerli məsul şəxslərin əkin suyunun veriləcəyi ilə bağlı vədlərinin yalan çıxdığını deyiblər.

Etirazçılar qeyd ediblər ki, əkin suyuun verilməməsi nəticəsində dəyən zərərin ödənilməsi hakimiyyətin üzərinə düşsə də, fermerlərə heç bir vəsait ödənilmir.

***H.RƏHİMZADƏ***

# "Azadistan" dövləti və Mirzə Tağıxan Rəfət

**Güney Azərbaycanın Təbriz şəhərində dünyaya gələn Mirzə Tağıxan Rəfət Təbrizi (1889/90-1921) ilk təhsilini burada aldıqdan sonra atası Ağa Məhəmməd Təbrizi onu İstanbula göndərmişdir. Osmanlı imperiyasınn paytaxtında türk dili ilə yanaşı, fars və fransız dillərində təhsil almış, Trabzonda Naseri məktəbində əvvəlcə fransız dili müəllimi kimi çalışmış, daha sonra da məktəbin müdiri olmuşdur.**



1916-cı ildə Trabzonun çar Rusiyası tərəfindən işğalından sonra Rəfət də Təbrizə qayıtmış və milli demokratik hərəkatda fəal iştirak etmişdir. O, əvvəlcə İran Demokrat Partiyasının üzvü olmuş, daha sonra İDP-nin Təbriz Komitəsi əsasında yaranmış Azərbaycan Demokrat Firqəsinin qurucularından və ideoloqlarından biri olmuşdur.

Seyid Məhəmməd Xiyabaninin nəvəsi Fəraməz Xiyabani babası haqqında xatirələrində yazır ki, Əbülqasim Füyuzat, Fərivərd Abdullazadə, İbrahim Əmirxızı və Tağı xan Rəfət istibdad əleyhinə mübarizədə insanları səfərbər etmək, konstitusiyanın tam şəkildə icrasına, demokratiya, ədalət və hüquq bərabərliyinə nail olmaq üçün az sonra ADF-nin mətbu orqanı olacaq "Təcəddüd" adlı qəzeti nəşr etməyi qərara alırlar. İdeya rəhbəri Ş.M.Xiyabani olan "Təcəddüd" qəzetinin birinci sayı 1917-ci il aprelin 9-da çıxır. Mirzə Təqixan Rəfətin təşəbbüsü ilə fransızca "renessans" sözünün ərəb dilində qarşılığı olan "təcəddüd" ifadəsi (yeniləşmə) qəzetə ad kimi seçilir.

1917-ci ilin aprelində İDP-nin Azərbaycan Vilayət Komitəsinin təsis toplantısı keçirilmiş, Azərbaycanın bölgələrindən gəlmiş 480 nəfər bu toplantıda iştirak etmişdir. Bir neçə gün sürən müzakirədən sonra konfransda 7 maddəlik qərar qəbul edilmişdir. Toplantıda Azərbaycan Demokrat Firqəsinin yaradıldığı və rəhbərliyinə Şeyid Məhəmməd Xiyabani, Mirzə İsmayıl Nobəri, Məhəmmədəli Badamçı, Mirzə Tağıxan Rəfət, Əhməd Kəsrəvi, Doktor Zeynalabdinxan, Sultanzadə, Zeynalabdin Qiyami, Nurulla xan Yekani, Mirzə Əli Heyət və başqalarının seçildiyi elan edilmişdir. Mirzə Tağıxan Rəfət həm partiyada yenilik tərəfdarı kimi fəal çalışır, həm də mitinqlərdə Xiyabaninin və başqalarının xalqa türkcə müraciətlərindən parçaları fars dilinə çevirərək "Təcəddüd" qəzetində çap edirdi.

Urmiya və Salmas bölgəsinin əhalisi erməni-aysori "xristian ordusu" tərəfindən qətliamlara məruz qaldığı bir vaxtda İhsan paşanın rəhbərlik etdiyi Osmanlı hərbi birlikləri 1918-ci ilin iyununda Güney Azərbaycana daxil olaraq bu qırğınların qarşısını almışdır. Xoyu mühasirəyə almış Andranik Ozanyanın rəhbərlik etdiyi erməni-aysori ordusu ilk döyüşdəcə məğlub olub geri çəkilmişdir. 1918-ci il sentyabrın 25-də xalqın arzusu ilə Osmanlı qoşunları Əli İhsan Paşanın komandanlığı altında Təbrizə daxil olur. Güney Azərbaycanın idarəçiliyini təşkil etmək üçün "İttifaqi-islam" adlı təşkilat qurulur. Bu təşkilatın qurucuları sırasında Mirzə Tağıxan da olur.

Rafət həm də Osmanlı ordusunda müşavirlik vəzifəsini yerinə yetirir. Eyni zamanda o, Azərbaycan valisi Nizamül-səltənənin istəyi ilə türk dilində "Azərbaycan" adlı qəzet də nəşr etdirir. 1918–1919-cu illərin əvvəllərində Rəfət "Təcəddüd" qəzetinin 59–86-cı saylarına redaktorluq etməklə yanaşı, ADF Gənclər təşkilatının "Azadistan" adlı elmi, nəzəri-siyasi jurnalını da ən ağır və gərgin günlərdə nəşr etdirə bilmişdir.

"Təcəddüd", "Azərbaycan" qəzetlərinin, "Azadistan" jurnalının əsas yazarlarından biri kimi Rəfət bu mətbu orqanlardakı məqalələrində yeni həyatın tələblərini ifadə etməyə çalışmışdır. Onun ilk yazılarında demokratik əhval-ruhiyyə, vətənpərvərlik və xəlqilik əsas yer tutmuşdur. Bu baxımdan Rəfət çağdaş "İran" poeziyasının ilk şairi kimi də tanınmışdır. Eyni zamanda, o, H.Sahir, Ə.Xürrəm, Y.M.Daneş və başqa şairlərin və yazıçıların ardıcılları olduqları "Rəfət məktəbi" adlandırılan ədəbi məktəbin yaradıcısıdır. O, "Təcəddüd"də, "Azadistan" jurnalında açıq imza ilə və ya "Femina" təxəllüsü ilə dərc etdirdiyi şeirləri, eyni zamanda dərin məzmunlu məqalələri ilə milli-azadlıq hərəkatına yaxından kömək göstərmişdir.

Rəfət inqilabçı, yenilikçi ruhlu, milli sosial-demokrat olmuşdur. Onun demokrat ruhu sonralar daha çox milli-demokrat yönündə inkişaf etmişdir. Hər halda o, Xiyabani ilə müqayisədə türk mədəniyyətini, türk kimliyini çox öndə tutmuş, Azərbaycan türklüyünü müdafiə və təbliğ etmişdir. Hesab edirik ki, onun demokratiyadan milli demokratiyaya daha çox meyl etməsində 1917-ci ilin oktyabrında Rusiyada hakimiyyətə gələn bolşeviklərin və onların uzantılarının zaman-zaman Azərbaycan türklüyünə qarşı etdiyi çirkin oyunlar, eyni zamanda digər millətlərə aid "demokrat"ların ikiüzlü əməlləri də mühüm rol oynamışdır.

Araşdırmaçı alim Əli Şamil yazır ki, buna görə də Xiyabani, Tağıxan Rəfət və başqa azərbaycanlı demokratlar marksizm cərəyanının bolşeviklər adlandırılan qrupunun yeritdiyi siyasətə, eləcə də rusların himayəsilə təşkil olunmuş bütün qruplara xoş münasibət bəsləmirdilər: "Çünki bu qrupların üzvlərinin əksəriyyətini ermənilər təşkil edirdilər. Onlar da siyasi mübarizə aparmaq əvəzinə, müsəlmanları kütləvi şəkildə qırır, talanlar törədirdilər".

Əli Şamil yazır ki, 1919-cu ilin avqust-sentyabr aylarında Qacarlar dövlətinin Dördüncü Məclisinə seçkilər keçiriləndə Mirzə Tağıxan Rəfət öz namizədliyini verməsə də, ADF-nin liderlərindən biri kimi tez-tez seçicilərlə görüşür, alovlu çıxışlar edir, qəzetdə məqalələr yazaraq seçiciləri demokratlardan olan namizədlərə səs verməyə həvəsləndirir. Aparılan səmərəli təşkilati işlər öz bəhrəsini verir. Təbriz və şəhər ətrafından 9 deputat yerindən 6-sını ADF-nin tərəfdarları qazanır.

Ancaq bu dövrdə ingilislər Qacarlar dövlətini də Hindistan kimi müstəmləkəyə çevirmək məqsədilə 1919-cu il avqustun 9-da baş nazir Vüsuqüd-dövlə ilə müqavilə bağlayır və buna etiraz edənlərdən biri də ADF-nin liderlərindən Rəfət olur. O, Şeyx Məhəmməd Xiyabaninin öndərliyi altında ingilis imperializminə və mərkəzi hökumətin anti-Azərbaycan siyasətinə qarşı 1920-ci ilin 7 aprelində başlayan milli hərəkatda fəal rol oynayır. Həmin günlərdə Rəfət yalnız təşkilati işlərdə, ideya-siyasi mübarizədə Xiyabani ilə çiyin-çiyinə olmaqla qalmır, həm də şeirləri ilə üsyan bayrağı qaldırır, xalqı mübarizəyə səsləyirdi.

1920-ci il iyunun 24-də Ş.M.Xiyabaninin qurduğu Milli Hökumətin Rəyasət Heyətinə 20 nəfər daxil idi ki, onların sırasında Məhəmmədəli Badamçı, Haşim Neysai, Mahmud Əmin Mülkədar, Mirzə Təqixan Rəfət, İsmayıl Əmrirxızı, Əbülqasim Füyuzat, Nurulla xan Yekani, Nüsrətulla Neysari, Zeynalabdin Qiyami kimi məşrutə inqilabının iştirakçısı və inqilab veteranları var idi. Təqixan Rəfət ADF və Milli Hökumətdə Xiyabaninin köməkçisi və mədənimaarif məsələləri üzrə müşaviri vəzifəsini yerinə yetirirdi. O bu vəzifədə də sonuna qədər qaldı və milli hərəkat yolunda şəhid oldu. Qeyd edək ki, Rəfət Azərbaycanda qadın azadlığının da qatı tərəfdalarından biri olmuş, "Femina" təxəllüslü yazılarında, məsələn, "Qadınlara xitab" və digər şeirlərində onların zülmətdən işığa çıxmasının vacibliyini ifadə etmişdir.

Tağıxan Rəfət siyasətlə jurnalistika, ya da siyasətlə ədəbiyyat arasında düzgün qurulmayan münasibətlərin qurbanı olmuşdur. Rəfət bir tərəfdən hər cürə yeniliyə qarşı çıxan mühafizəkarları, digər tərəfdən isə ifrat yenilikçiləri, liberalistləri tənqid etmişdir. O hesab edirdi ki, həddən artıq mühafizəkarlıq kimi, ifrat müasirləşmək tərəfdarı olmaq da zərərlidir. Deməli, Rəfət milli demokrat kimi Azərbaycan milli hərəkatının türklük ruhunu daha çox ifadə etmişdir. Onun demokratik görüşləri türk dünyagörüşü ilə daha çox səsləşirdi. Bu anlamda o, Xiyabani ilə müqayisədə demokratiya və liberalizmə münasibətdə daha çox milli ruhu ifadə etmişdir.

1920-ci ilin iyununda elan edilmiş "Azadistan" adlı muxtar dövlət süquta uğradıqdan sonra, yəni 1920-ci ilin sentyabrında Rəfət Təbrizi də Xiyabani kimi qətlə yetirilmişdir. Milli-demokratik görüşləri Xiyabaninin yaxın silahdaşı hesab olunan Rəfət bütün sahələrdə, o cümlədən mədəniyyət, fəlsəfə və ədəbiyyatda da yeniləşmənin tərəfdarı kimi tanınmışdır.

***Faiq ƏLƏKBƏRLİ,***
***fəlsəfə doktoru, dosent***

Azərbaycan kinosu – 125

# Lənkəranlı Lenin mükafatı laureatı

## Görkəmli kinooperator Cavanşir Məmmədovla görüşün təəssüratı



**Tanınmış kinorejissor və kinooperator, Azərbaycanın Xalq artisti, Türkmənistanın və Azərbaycanın Əməkdar incəsənət xadimi, Lenin mükafatı laureatı Cavanşir Musa oğlu Məmmədov 17 oktyabr 1915-ci ildə Lənkəranda dünyaya göz açmışdır. O, 1937-ci ildə Aşqabad Kino Texnikumunu, sonralar Ümumittifaq Dövlət Kinematoqrafiya İnstitutunu bitirmiş, əmək fəaliyyətinə Aşqabad kinostudiyasında başlamışdır. Aşqabadda işləyərkən ilk dəfə "Baba və nəvə" sənədli filminin çəkilişində iştirak etmişdir.**



Görkəmli ekran ustası ilə görüşümüz 1985-ci il yanvar günlərindən birində olmuşdur. Təbiətdə qış olsa da, hava mülayim idi. Söhbətə özü körpü saldı:

– Kinorejissor kimi Lənkərana ilk dəfə 1969-cu ilin avqust plenumundan sonra gəlmişəm, – dedi.– Onda Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi vəzifəsinə təzəcə seçilmişdi. Heydər Əliyevin tapşırığı ilə Azərbaycanın iqtisadi və sosial həyatını əks etdirən sənədli filmlər çəkirdik. "Bakı", "Lənkəran", "Axtaran tapar", "Səma altında şəhər", "Azərbaycan dağlarında", "Lahıc" və s. sənədli filmlər o günlərdən yadigardır.

Cavanşir Məmmədov azca sözünə ara verdi, sonra stəkandakı çaydan bir neçə qurtum aldı. Fikir verirdik, əlində stəkan xəyala qapılmışdı. Onu öz aləmindən ayırmamaq üçün bir az əvvəl bizə verdiyi jurnalı vərəqləyirdik. Orada görkəmli ekran ustası haqqında geniş bir yazı verilmişdi. Məqalədə "Xəzər neftçiləri haqqında dastan" və "Dəniz fatehləri" sənədli filmlərdən söhbət gedirdi. Bu filmlərə görə Cavanşir Məmmədov 1960-cı ildə sovet kinosu tarixində Azərbaycan üzrə ilk dəfə, Lenin mükafatına layiq görülmüşdü.

Həmin filmlərə baxmaq bizə də nəsib olmuşdu. Filmlərdəki operator işi olduqca diqqətimizi cəlb etmişdi. Ona baxanlar mədəndə baş verən qəzanı heyrət və dəhşət içində izləyirlər. Hadisə belə təsvir olunmuşdur: buruq yıxılır. Tamaşaçılara bir anlıq elə gəlir ki, buruq ekranqarışıq üstlərinə aşacaq.

Həmin filmlər barədə söhbət açanda Cavanşir Məmmədovun üzünə xoş bir təbəssüm yayıldı:

– Hər iki filmi sənədli ekran ustası R. Karmen və S. Medinski ilə birgə çəkmişdik, – dedi. – Ssenarist belə bir anı gözləmədiyindən onu əsərə daxil etməmişdi. Burada hər şey təsadüfən baş verdi. Yadımdadır, çəkiliş zamanı gözlənilmədən qazma buruğu yana əyildi. Nəticədə, qəza baş verdi. Neftçilər dərhal oranı tərk etdilər. Mən isə hadisə yerindən çəkilmədim və həmin anı çətinliklə də olsa lentə aldım.

Cavanşir Məmmədov o dövrdə Moskvada "Elmi-kütləvi filmlər" kinostudiyasında işləyirdi. Söhbət zamanı dedi ki, "Lənkəran" adlı sənədli film çəkmək fikrindədir. Çəkilişdən sonra Bakıya gedəcəyini, orada "Povestin davamı" sənədli film üzərində işləyəcəyini bildirdi. Doğrudan da, bir neçə il sonra Moskvada "Kino səyahətlər klubu"da həmin filmlərə baxmaq imkanı qazandıq. "Povestin davamı" 1972-ci ildə çəkilmiş "Vahid ailədə" sənədli filmin davamıdır. Sonrakı filmdə Neft Daşlarında yaşlı nəsli əvəz etmiş gənclərin həyatına daha geniş yer ayrılmışdı.

"Lənkəran" sənədli filmində isə Azərbaycanın bu əsrarəngiz guşəsinin florası və faunası ekran vasitəsilə canlandırılır. Ssenari müəllifi və operator Cavanşir Məmmədov tamaşaçıları Qızılağac və Hirkan qoruqlarına, eləcə də Xanbulançay dəryaçasına səyahətə aparır. Həmyerlimizin vaxtilə çəkdiyi "Dənizdə şəhər", "Abşeron işıqları", "Qobustan", "Xınalıq", "Naxçıvan", "Yesenin Bakıda", "Şuşa", "Nizaminin Vətənində" və s. sənədli filmlər ovaxtkı mərkəzi televiziya ekranlarında dəfələrlə göstərilmişdir.

Yadımdadır, tanınmış ekran ustası Cavanşir Məmmədov söhbətində Böyük Vətən müharibəsində lentə aldığı filmlərə də toxundu. Müharibə illərində o, Mərkəzi Sənədli Filmlər Studiyasında operator qrupunda fəaliyyət göstərib. Deyirdi ki, o qanlı-qadalı illərdə kino kamerası onun silahına çevrilmişdi. Qafqaz, Budapeşt, Vena uğrunda döyüşlərin iştirakçısı olmuşdu. Müharibədəki fəaliyyətinə görə "Birinci dərəcəli Böyük Vətən müharibəsi", "Qırmızı ulduz" ordenləri və medallarla təltif edilmişdi.

20 hissəli "Böyük Vətən müharibəsi" sənədli filmlərinin çəkilişində Cavanşir Məmmədov xüsusi fəallıq göstərmişdir. Bu filmlər 252 kinooperator-döyüşçünün məhsuludur. O, müharibədən 42 kinooperatorun qayıtmadığını təəssüf hissi ilə bildirirdi.

Cavanşir Məmmədov 2 il Birmada çalışıb və orada "Birmada 100 gün" sənədli televiziya filmi yaradıb.

Kino sənətimizin görkəmli ustalarından biri Cavanşir Məmmədov 1997-ci il sentyabrın 9-da Moskvada vəfat edib. İllər arxasından boylananda çox şey xatırlanır. Ciddilik yağan sifətində işıltılar oynaşır, üz-gözünə yayılan xoş təbəssüm qəlbinə axır, adama yaxın, doğma hisslər aşılayırdı. O, Lənkəranda çoxdan olmamışdı. Doğmaları, dostları həyatda olmasa da onları unutmamışdı.

Lənkəranda olduğu günlərdə Xəzərin sahilinə çıxdıq. Çiskin yağış ara vermirdi. O, gözlərini dənizdən ayırmadan, nədənsə, fikrə dalmışdı. Şübhəsiz, uşaqlıq illəri, keçmişdə qalan xatirələr gözlərinin önündə canlanırdı…

***Hacı Etibar ƏHƏDOV,***
***"Aşkarlıq" qəzetinin***
***baş redaktoru***

Lənkəran

NAXÇIVAN

# Xilaskar türk zabitnə ehtiram

**Ordubad rayonunun Anaqut kəndində 1918–1920-ci illərdə erməni quldurlarına qarşı mübarizədə şəhid olan Həsən Bəşir Türkoğlunun xatirəsini əbədiləşdirmək məqsədilə bulaq-abidə inşa edilib.**



Bulaq-abidənin açılış tədbirində Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli və Türkiyə Respublikasının Naxçıvan Muxtar Respublikasındakı baş konsulu Asip Kaya çıxış ediblər.

Bildirilib ki, 1918–1920-ci illərdə erməni daşnakları Azərbaycanın başqa bölgələrində olduğu kimi, Naxçıvanda da türk-müsəlman əhalisinə qarşı qanlı cinayətlər törədiblər. Belə dəhşətli günlərdə türk ordusu qardaş harayına yetib. Kazım Qarabəkir paşanın başçılığı altındakı IV Qafqaz ordusunun 15-ci süvari alayının tağımı yerli özünümüdafiə üzvləri ilə birlikdə kəndlərimizdə soyqırımı faciələrinin qarşısının alınmasında ölüm-dirim savaşına girib, bizimlə birlikdə şəhidlər veriblər.

Türk ordusunun belə qəhrəman zabitlərindən biri də Həsən Bəşir Türkoğludur. O, bu döyüşdə xüsusilə fərqlənib, düşmən mövqelərinin darmadağın edilməsində xüsusi qəhrəmanlıq nümayiş etdirib. Həsən Bəşir 1918-ci ildə Ordubad rayonunun Dırnıs kəndi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub və bu kənddə dəfn edilib.

***"Xalq qəzeti"***

# Diaspor gənclərinin növbəti görüşləri



**Naxçıvanda təşkil edilmiş IV Diaspor Gəncləri Düşərgəsinin iştirakçıları 6-cı günün panel müzakirələrində AMEA-nın Akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunun əməkdaşı, professor Solmaz Tohidinin, İrəvan xanının Almaniyada yaşayan varisi Əmir Əli Sərdari İrəvaninin, tanınmış alman alimi, nəsimişünas Miçael Hessin məruzələrini dinləyiblər.**

Günün ikinci yarısında Vətən müharibəsinin Naxçıvandan olan iştirakçıları, şəhid ailələri ilə "Qarabağ fatehləri" mövzusunda görüş keçirilib. Diaspor gəncləri vətənpərvərliklə bağlı tədbirlərin keçirilməsinin önəmini vurğulayaraq şəhid ailələrinə və qazilərə ehtiramlarını bildiriblər, təmsilçilərtəşkilatçılara təşəkkür ediblər. Sonra iştirakçılar "Model United Nations" simulyasiyası – Dünyada silahlı münaqişələrin ətraf mühitə təsirləri və onların aradan qaldırılması üçün birgə səylər barədə məlumat alıblar.

Gənclər üçün ayrılan asudə vaxtda "Bəxt üzüyü" filmi nümayiş etdirilib, əyləncə və komanda oyunları olub.

***"Xalq qəzeti"***

# Naxçıvanın hidroloji turizm abidələri

**Ölkəmizdə turizmin inkişafı ilə bağlı qazandığı uğurlar Naxçıvanı da geniş əhatə edir. Qədim diyarın nadir tarixi və təbiət abidələri daxili və xarici turizm üçün cəldedici ünvanlardır.**



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 5 iyun 2023-cü il tarixli sərəncamı ilə təsdiq edilmiş "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nda muxtar respublikada turizmin inkişafı da prioritet istiqamət olaraq qəbul edilmişdir. Proqramda turizm və rekreasiya zonalarının yaradılması, sağlamlıq turizminin imkanlarının genişləndirilməsi, qış və kənd turizminin, ekoturizmin inkişaf etdirilməsi qarşıya məqsəd qoyulmuşdur.

Naxçıvan Muxtar Respublikasının turizm potensialı zəngindir. Bölgənin turizm ehtiyatlarından bəhs edərkən ilk ağıla gələn bu regionun təbiət və tarixi abidələridir. Buradakı tarixi abidələrin hər biri turizm üçün potensial mənbə sayılmaqla yanaşı, qədim diyarın təbiəti də özünəməxsusluğu ilə seçilir. Nəzərə alaq ki, zəngin ekoloji sistemə malik Naxçıvanda ekoturizmin onlarla növü var ki, onlardan hər biri turizm üçün maraqlı obyekt rolunda çıxış edə bilər. Belə obyektlərdən biri də muxtar respublikamızda mövcud olan hidroloji abidələrdir.

Hidroloji abidələr ekoturizmdə, əsasən, təbiət abidələri sisteminə daxil olan abidələrdir. Lakin müasir dövrdə dünyada turizmin inkişafı yönündə atılan addımlar elə bir səviyyəyə çatıb ki, "təbii yoxdursa, oxşarını yarat" məntiqi ekoturizmi də öz ağuşuna alıb. Məsələn, hazırda bir çox ölkələrdə ada turizmində süni adalardan istifadə daha çoxluq təşkil edir və yaxud isti ölkələrdə turistlərə "qış fəsli kompleksləri" yaratmaq yeni ideya deyil.

Turistlər üçün mövcud şəraitin yaradılması heç də həmişə təbiilik tələb etmir. Əsas odur ki, turist onun istifadəsinə verilmiş şəraitdən yararlana bilir və ondan razıdır. Bu nöqteyi-nəzərdən muxtar respublikada mövcud olan təbii su ehtiyatlarının əksəriyyətinin turizm sektoruna hidroloji abidə kimi təqdim olunmasını daha düzgün hesab etmək mümkündür. Ölkəmizin digər bölgələri ilə müqayisədə Naxçıvanın su ehtiyatları az olsa da, bu ehtiyatların maraqlı coğrafi məkanlarda yerləşməsi onların gözəlliyini daha da artırır. Bunlardan bir neçəsinə nəzər salaq.

Şərur rayonu ərazisində yerləşən Arpaçay Su Anbarı Azərbaycanda iri irriqasiya qurğularından sayılır. Bu su anbarı 1977-ci ildə istifadəyə verilib. Su anbarının sahəsi 6,30 kvadratkilometrdir. Araz çayının sol qolu hesab edilən çayın üstündə 68 metr hündürlükdə tikilmiş bənd anbara 150 milyon kubmetr suyun yığılmasına imkan verir. Bu su ehtiyatından Sədərək, Şərur və Kəngərli rayonunun ərazilərində yerləşən əkin sahələrinin suvarılmasında istifadə olunur.

Bu hidroloji abidə yerləşdiyi mövqeyə görə (su anbarının qərb hissəsi dağ yamacları ilə sərhəddir, əks tərəfdən isə Arpaçay boyunca yerləşən kəndlərə avtomobil yolu uzanır) çox cəlbedici mənzərəyə sahibdir və burada müxtəlif turizm növlərinin inkişafı üçün də imkanlar var. Ən əsası isə su anbarının qərb hissəsi boyunca uzanan yüksək dağ yamacları günün müəyyən hissəsindən sonra Günəş şüalarının qarşısını kəsərək qızmar yay günlərində ətrafa təbii sərinlik bəxş edir.

Batabat Su Anbarı isə Şahbuz rayonunun ərazisində, Naxçıvançayın hövzəsində yerləşir. Bu hidroloji abidə eyniadlı 3 su hövzəsindən ibarətdir. Ümumi su tutumu, təqribən, 3 milyon kubmetrdir. Məşhur "Üzən ada" da burada yerləşir. "Üzən ada" sfaqnum mamırlarından və onun üzərində bitən örtüklərdən formalaşıb. Küləyin istiqamətindən asılı olaraq ada öz yerini dəyişir. Göldə yaşayan qiymətli qızıl və gümüşü ilişkən balıq növü bu ərazidə balıq ovu idmanına şərait yaradır. Eyni zamanda, ada göldəki suyun tam axıdılmasına mane olduğundan balıqlar burada qışda da qala bilirlər. Torfun altındakı münbit şərait hesabına çoxalan külli miqdarda onurğasızlar balıqların bol qidasını təmin edir.

Muxtar respublikada əhəmiyyətli su ehtiyatına malik hidroloji qurğulardan biri də Heydər Əliyev Su Anbarıdır. Babək rayonunun Vayxır kəndi yaxınlığında, Şahbuz rayonu ərazisində yerləşən su anbarı dəniz səviyyəsindən 1059 metr hündürlükdə yerləşir. Ümumi həcmi 100 milyon kubmetrə malik su anbarı 2005-ci ildə istifadəyə verildikdən sonra Şahbuz, Culfa, Babək rayonlarının suvarma suyuna olan tələbatı xeyli yaxşılaşdırılıb, ümumilikdə, anbar vasitəsilə bu gün 17 min hektara yaxın əkin sahəsi suvarılır. Son illərdə burada müxtəlif balıq növlərinin çoxaldılmasına diqqət artırılıb.

Babək rayonu ərazisində yerləşən Uzunoba Su Anbarı isə son dövrlərdə burada aparılan quruculuq tədbirləri çərçivəsində daha böyük imkanlar əldə edib. Belə ki, bu ərazidə əhalinin istirahəti üçün çimərlik kompleksi yaradılıb, mağaza, kafe, yeməkxana fəaliyyət göstərir. Muxtar respublikada balıq ehtiyatlarının zənginləşdirilməsinə öz töhfəsini verən bu su anbarının ətrafında əhalinin istirahəti üçün yeni infrastrukturun yaradılması bu hidroqurğunun imkanlarını daha da artırıb.

Qədim diyarın hidroloji abidələrinə Ordubad rayonu ərazisində də rast gəlmək mümkündür. Belə ki, Zəngəzur dağ silsiləsinin cənub yamacında, dəniz səviyyəsindən 3065 metr yüksəklikdə yerləşən Göygöl həm qədimliyinə, həm də yerləşdiyi coğrafi əraziyə görə digərlərindən fərqlənir. "Kitabi Dədə-Qorqud"da adıçəkilən Göygölün, deyilənlərə görə, əvvəllər həcmi böyük olub, ancaq zaman keçdikcə onu əhatə edən dağların aşınması nəticəsində gölün sahəsi kiçilib.

Naxçıvan Muxtar Respublikasının ən hündür dağ gölü sayılan Göygölün uzunluğu, təxminən, 211, eni 103, dərinliyi isə 7 metrdir. Su tutumu 145 kubmetrdir. Buzlaq mənşəli olan bu gölü bəzən "dörd fəsil" gölü də adlandırırlar. Çünki yay aylarında, xüsusən də avqust ayında gölün bir tərəfində qar olanda digər tərəfində çiçək açır, digər tərəfdə isə çiçəklərin ləçəkləri tökülür. Yaradanın Naxçıvana bəxş etdiyi bu gözəl təbiət nümunəsi dağ və piyada turizminin inkişafında əvəzolunmaz imkanlara malikdir.

Ordubad torpağında digər əsrarəngiz hidroloji abidə Pəzməri kəndi yaxınlığında yerləşən eyniadlı şəlalədir. Şəlalə Zəngəzur silsiləsinin Ordubad rayonu ərazisində yerləşən Ayıçınqılı aşırımından 3707 metr hündürlükdən başlayan eyniadlı Pəzməri çayının üzərində yerləşən təbiət abidəsidir. Yuxarı axarlarda kanyonvari dar, kaskadlı dərələrdən keçən, əsasən, bulaq və qar suları ilə qidalanan və Pəzməri çayının qolu olan Ayıçınqılı çayının Vənəndçaya töküldüyü yerin yaxınlığında, dəniz səviyyəsindən 2 min 161 metr hündürlükdə gur şəlalə yaradır.



Pəzməri şəlaləsi su sərfi, axının sürəti, enerji ehtiyatı ilə fərqlənir. Karbonatlı süxurlar üzərində şəlalənin nisbi hündürlüyü, təxminən, 30 metrdir. Pəzməri kəndindən 4–5 kilometr aralıda yerləşən bu ecazkar təbiət abidəsini görmək üçün Naxçıvanın bütün bölgələrindən hər il buraya xeyli insan gəlir. Pəzməri şəlaləsi zəngin enerji ehtiyatına malikdir. Şəlalənin ortaillik su sərfi 1,34 kubmetr saniyədir. Yayın əvvəllərində su sərfi 25 kubmetr saniyəni ötür. Onu da qeyd edək ki, Pəzməri çayının üzərindəki eyniadlı böyük şəlalədən başqa, bir neçə xırda şəlalə də mövcuddur. Bu şəlalələr ərazidə olduqca gözəl bir mənzərə yaratmaqla yanaşı, həm də burada turizm potensialının olmasından xəbər verir.

Ümumiyyətlə, muxtar respublikada ekoturizmin inkişafına imkan verən xeyli sayda hidroloji abidələr vardır. Hələ biz bura regionda mövcud olan mineral su yataqlarını, tarixi abidələrimiz sayılan kəhrizləri aid etmirik. Bu sadaladıqlarımızın hər biri turizmin inkişafında bu və ya digər istiqamətlər üzrə mühüm rol oynayacaq obyektlərdir. İnanırıq ki, yuxarıda adıçəkilən Dövlət Proqramının uğurlu icrası yaxın gələcəkdə bu hidroloji abidələrin də turizmə faydasını ön plana çıxaracaq.

***Səbuhi MƏMMƏDOV,***
***"Xalq qəzeti"***

Naxçıvan

# Bakıda "Paris-2024"ə ilk lisenziyalar qazanılıb

## Dünya çempionatının qalibləri

**Bakıda atıcılıq üzrə 53-cü dünya çempionatı davam edir. Dünən bu nüfuzlu yarışda ilk qaliblər məlum olub.**




Olimpiya növü olan pnevmatik tapançadan 10 metr məsafəyə atəş üzrə yarışda kişilər arasında mübarizədə həm fərdi, həm də komanda halında çinlilər üstünlüklərini nümayiş etdiriblər. Fərdi növdə qızıl medalı 244.3 xalla Çin yığmasının üzvü Boven Janq qazanıb. Gümüş medala 240.8 xal toplayan serbiyalı Damir Mikeç, bürünc medala isə 215.7 xal yığan bolqar Kiril Kirov sahib olub. Yarışın




komanda növündə də ilk yeri çinlilər tutublar. Komanda növündə gümüş medala Almaniya, bürünc medala isə Hindistan komandası yiyələnib.

**Komanda yarışında və fərdi yarışda qızıl medal qazanan çinli Boven Janq turnirdəki çıxışı ilə bağlı jurnalistlərə açıqlama verib.** O qeyd edib ki, komanda yarışında ən yüksək xalı toplamaq üçün əllərindən gələni ediblər: "Sevinirik ki, qarşıya qoyulan hədəfə çatdıq. Qalib olduğumuz üçün xoşbəxtik. Bakıda olmaqdan məmnunluq hissi keçirirəm. Bakı çox gözəl şəhərdir. Eyni zamanda, çempionat yaxşı təşkil olunub".

27 yaşlı idmançı fərdi yarışdakı çıxışı və ikinci yeri tutan Damir Mikeçlə arasındakı rəqabətdən də danışıb. Deyib ki, dünya çempionatında ən güclü idmançılar iştirak etdiyindən rəqabət gərgin olub. Mübarizədə isə ən vacib məsələ insanın özünə inamıdır. Bütün diqqətimi hədəfə yönəltdim və nəticədə qalib oldum".

**İdmançı Paris Olimpiadasına lisenziya qazanmağın vacib olduğunu da bildirib:** "Yarışda yaxşı çıxış etməklə yanaşı, lisenziya əldə etmək də vacib idi. Fərdi nailiyyətimlə yanaşı, komandanı da fikirləşirəm. Çox şadam ki, Paris Oyunlarına vəsiqə qazandım. Olimpiya Oyunlarında yaxşı nəticə göstərmək üçün əlimdən gələni edəcəyəm.

**Çin komandasının digər üzvü Cunhuy Liu da yarışla bağlı fikirlərini bildirib:** "Bakıya artıq ikinci dəfə səfər edirəm. İlk dəfə bu ilin may ayında paytaxtda keçirilmiş dünya kuboku yarışında iştirak etmişdim. Bakı Atıcılıq Mərkəzində idmançıların öz potensiallarından maksimum istifadə etmələri üçün hər bir şərait yaradılıb. Hər şey yüksək səviyyədə təşkil olunub. Həm bütün iştirakçılara, həm də azarkeşlərə təşəkkür edirəm".

Dünən, həm də qadınlar arasında 10 metr məsafəyə pnevmatik tapançadan atəş üzrə yarışın qaliblərinin adlarına da aydınlıq gəlib.

Çin yığmasının üzvü Yianq Ranxin fərdi növdə 239.8 xalla qızıl medala yiyələnib. Gümüş medal 238.3 xal toplayan yunanıstanlı Anna Korakakiyə, bürünc medal isə 218.9 xal yığan çinli Li Xueyə çatıb.

Yarışın komanda növündə də ilk yeri çinlilər tutub və qızıl medal əldə ediblər. Komanda növündə gümüş medala Macarıstan komandası, bürünc medala İran komandası sahiblənib.

Beləliklə, yarışda "Paris-2024"ə ilk lisenziyaları sahibləri də müəyyənləşib. Belə ki, 10 metr məsafəyə pnevmatik tapançadan atəş üzrə kişilər arasında yarış iştirakçılara 4 lisenziya qazandırıb. Yarışın qızıl medalçısı çinli Boven Janq, bürünc medal sahibi bolqarıstanlı Kiril Kirov ilə yanaşı, finala düşmüş, lakin qaliblər arasında olmayan İsveçrə təmsilçisi Ceyson Solari və Almaniya təmsilçisi Robin Uolter də "Paris-2024"ə lisenziya əldə ediblər.

10 metr məsafəyə pnevmatik tapançadan atəş üzrə qadınlar arasında yarışda iştirakçılar 4 lisenziya əldə ediblər. Yarışın qızıl medalçısı çinli Yianq Ranxin, macarıstanlı Rahel Sara Fabian, vyetnamlı Trinh Tu Vinh və Cənubi Koreya təmsilçisi Kim Bomi "Paris-2024"ə lisenziya qazanıblar.

*L.QURBANOVA,*
*"Xalq qəzeti"*

# Rusiya oliqarxları niyə müharibəni pisləmirlər?

## *Onların hərbi məsələlərə təsiri sıfıra bərabərdir*

**2022-ci ilin fevralından bəri yalnız bir neçə rus oliqarxı Ukraynanın işğalına qarşı çıxıb. Onların müharibəni qınaması Rusiya ictimaiyyətinə çatdımı və ya Kremlin siyasətinə təsir etdimi? Bu suala cavab vermək üçün bəzi açıqlamaları nəzərdən keçirək.**



Rusiyanın "Yandex" axtarış sisteminin həmtəsisçisi Arkadi Voloj ötən həftə deyib: "Rusiyanın Ukraynaya təcavüzü vəhşilikdir və mən bunun qəti əleyhinəyəm. Ukraynada bir çoxları kimi mənim də dostlarım və qohumlarım var. Hər gün ukraynalıların evlərinə bomba atılması məni dəhşətə gətirir ". Bu sərt və açıq bəyanat öz müəllifinin adını Rusiyanın Ukraynaya qarşı müharibəsini pisləyən rus oliqarxlarının kifayət qədər qısa siyahısına salıb. Bəs ona bu cəsarəti verən nədir?

Xatırladaq ki, 1997-ci ildə "Yandex"i quran Voloj 2014-cü ildə İsrailə köçüb. Keçən il Avropa İttifaqı bu şirkəti Rusiyanın sanksiyaya məruz qalan müəssisələrinin siyahısına daxil edib. Avropa İttifaqı hesab edib ki, "Yandex" Rusiyanın Ukraynaya qarşı təcavüzünün təbliğinə, habelə Kremli tənqid edən məlumatların silinməsinə görə məsuliyyət daşıyır. Brüssel Voloju Rusiya hərbi əməliyyatına maliyyə dəstəyi verməkdə də ittiham edib. Voloj isə bu qərarı "yanlış" adlandırıb. Bundan sonra o, baş direktor vəzifəsindən istefa verib və direktorlar şurasını tərk edərək xaricə köçüb.

Müharibə əleyhinə çıxış edən bir neçə tanınmış rus oliqarxı arasında Rusiyanın ən böyük kreditorlarından biri olan "Tinkoff Bank"ın təsisçisi Oleq Tinkov da var. Keçən il o, "Putin faşizmini" açıq şəkildə pisləyəndən sonra Rusiya vətəndaşlığından imtina edib. Ondan əvvəl, 2014-cü ildə isə Rusiyadan ABŞ-a köçən investor Yuri Milner də eyni hərəkəti etmişdi. Böyük sərvət sahibi olan bu insanları birləşdirən və cəsarətləndirən isə onların Rusiya Federasiyasından kənarda yaşamalarıdır.

Belə görünür ki, Voloj və onunla həmfikir olanların indi müharibəni açıq şəkildə pisləməsi maliyyə elitasının Putinə sədaqətinə təsir edib, Avropa İttifaqının tətbiq etdiyi sanksiyalar işə yarayıb. Amma...

Rusiyalı oliqarxlar Qərbin təzyiqinə boyun əyirlərmi? Kral Birləşmiş Müdafiə Tədqiqatları İnstitutunun (RUSI) Rusiya və Avrasiya Təhlükəsizlik məsələləri üzrə əməkdaşı Emili Ferrisin bu suala cavabı fərqlidir. O, "Euronews"a müsahibəsində deyib: "Ölkədə yaşamadığınız zaman və varidatınızın çoxu xaricdə olanda, Voloj kimi rejimə qarşı çıxmaq çox asandır. Rusiyada yaşayan oliqarxlar isə müharibənin əleyhinə çıxmır. Bu da ona görədir ki, onlar hələ də Rusiyadadırlar və orada öz resurslarına malikdirlər. Bu qismən ona görədir ki, müharibəyə qarşı çıxmaq onlar üçün həqiqətən çətindir".

Exeter Universitetinin (Böyük Britaniya) dünya siyasəti üzrə professoru Devid Lyuis "Euronews"a deyib: "Əgər siz Rusiyadasınızsa, müharibəyə qarşı çıxmaq çox çətindir, çünki istintaq altında ola bilərsiniz. Ona görə də Rusiya Federasiyası ilə işgüzar əlaqələr saxlamaq istəyənlər, əsasən, susurlar. Yalnız ölkə hüdudlarından kənarda olan və Rusiya ilə işgüzar əlaqələrini xeyli azaldanlar özlərini danışmağa qadir və hazır hiss edirlər. Hətta onlar da o qədər çox deyillər".

Lyuis əlavə edib ki, sanksiyalar səbəbindən oliqarxların Putinə qarşı çıxacağını düşünmək olduqca sadəlövhlükdür. "Rusiyada siyasət və biznes bir-biri ilə sıx bağlıdır və hökumətin kursuna qarşı çıxmaq bu ölkədəki biznesi itirməkdir. Bu səbəbdən də onlar susmağa üstünlük verirlər. Volojun müharibəni kəskin pisləməsi də buna görə səs-küy yaratmadı..

Bununla belə, Berklidəki Kaliforniya Universitetinin Haas Biznes Məktəbinin dosenti Anastasiya Fedıkin qeyd etdiyi kimi, "narazılıqların şifahi ifadə etməklə onlar müəyyən ritorikanı normallaşdıra və biznes elitasına müəyyən təsir göstərə bilərlər".

Oliqarxlar Putinə qarşı çıxmaqla vəziyyəti dəyişdirə bilərmi? Oliqarxlar Rusiya siyasətində kifayət qədər zəif fiqurlardır. Onların qərarlara qəbuluna təsiri çox məhduddur. Xüsusən də müharibə ilə bağlı qərarlarda təsir gücləri demək olar ki, sıfırdır. Onlar Putindən daha çox asılıdırlar. Ferris də razılaşır ki, rus oliqarxlarının xaricdə müharibə əleyhinə azsaylı çıxışları, hətta ölkə daxilində Putinin imicinə təsir edə bilməz: "Onun hakimiyyəti əslində bu oliqarxlar tərəfindən deyil, hərbi rəhbərlər, hərbçilər, ona yaxın olan insanlar tərəfindən diktə olunur. Və bu qrup daxilində müharibə ilə bağlı heç bir fikir ayrılığı yoxdur".

Əgər işini itirmək təhlükəsi ilə üzləşən minlərlə insanın çalışdığı iri şirkətlərin sahibləri müharibəyə qarşı çıxsalar, bu, Putin və Rusiya cəmiyyəti üçün vəziyyəti dəyişə bilər. Ancaq bunun baş verməsi ehtimalı azdır. Çünki ölkədə böyük pul qazanan hər kəs Putin tərəfindən nəzərəçarpacaq dərəcədə idarə olunur.

Bütün bunlar isə Rusiyanın iqtisadi inkişafı, innovasiyaları, hətta siyasi sabitliyi üçün yaxşı heç nə vəd etmir.

***Pünhan ƏFƏNDİYEV,***
***"Xalq qəzeti"***

## Almaniya 28 azərbaycanlıya da qaçqın statusu verib

**Ukraynada gedən müharibə səbəbindən bu ölkədən Almaniyaya gələrək sığınacaq istəyən Azərbaycan vətəndaşlarının sayı artır. Bu barədə Almaniya Miqrasiya və Qaçqınlarla iş üzrə Federal İdarənin (BAMF) mətbuat xidmətindən bildirilib.**



Məlumatda qeyd olunur ki, 2023-cü ilin ilk 7 ayı ərzində federal idarəyə, ümumilikdə, 1016 Azərbaycan Respublikası vətəndaşı sığınacaq ərizəsi ilə müraciət edib. 852 nəfər ilk dəfə, 164 nəfəri isə ikinci dəfə ərizə verənlərdir. Onların əksəriyyəti Ukraynada yaşamaq hüququ olan Azərbaycan vətəndaşlarıdır.

Sığınacaq axtaranların yalnız 28 nəfərinə Cenevrə Konvensiyasına uyğun olaraq qaçqın statusu verilib. 387 nəfərin ərizəsi rədd edilib, Onların vətəndaşı olduqları ölkəyə könüllü qayıtmaları ilə bağlı qərar verilib.

Bildirilib ki, 2023-cü ilin yanvar–iyul aylarında Almaniyaya sığınacaq üçün, ümumilikdə, 188 min 967 nəfər müraciət edib (175 min 272 ilkin və 13 min 695 sonrakı müraciət). Ötən ilin eyni dövrü ilə müqayisədə (98 min 395 ilkin müraciət) bu, 78,1 faiz artım deməkdir. 2023-cü ildə ilkin müraciətlərin 13 min 808-i Almaniyada bir yaşa qədər doğulmuş uşaqlarla bağlı olub.

***"Xalq qəzeti"***


# "BAKI YOLTİKİNTİSERVİS" ASC səhmdarlarının nəzərinə!

2 oktyabr 2023-cü il saat 11.00-da "Bakı yoltikintiservis" ASC səhmdarlarının növbədənkənar ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Maliyyə vəziyyətinin təhlil edilməsi.
2. Əmlakın bir hissəsinin satışının həyata keçirilməsi.
3. Mülki məcəllədə nəzərdə tutulan bəzi məsələlərin həlli.

Telefon- (050) 350 -90- 50.

Ünvan- Bakı şəhəri, Sabunçu rayonu, Balaxanı -Binəqədi şosesi 11.

# "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC

## tabeliyindəki idarələr üçün elektrik mallarının satın alınması məqsədilə

## AÇIQ MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il avqustun 31-i saat 17.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili:1177 .

Ünvan- AZ1003, Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

# "Azərişıq"ASC

## "Ağdam şəhəri ərazisində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim-Tədris Kompleksinin tikintisi" işlərinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1."Azərişıq"ASC-nin "Ağdam şəhəri ərazisində Rəqəmsal İdarəetmə Mərkəzi və Təlim -Tədris Kompleksinin tikintisi" işlərinin satın alınması.

İştirak haqqı 1500 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat-"Azərişıq" ASC

H\h- AZ83AIIB33020029441802068118

VÖEN- 9900069391

Benefisiar Bank- "Kapital Bank" ASC-nin Gənclik filialı

Kod- 200189

VÖEN- 9900003611

M\h- AZ37NABZ01350100000000001944

SWIFT Code- AIIBAZ2X

Əlaqələndirici şəxs- Namik Heybətov.

Əlaqə telefonu (şəhər)- 012- 440 -39- 93 (daxili 92-19) .

Elektron poçt: namiq.heybetov@azerishiq.az

Ünvan- AZ1009, Bakı şəhəri, M.Əliyev küçəsi 130.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən "Azərişıq" ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.

2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.

3. İddiaçının tam adı ,hüquqi statusu, nizamnaməsi və qeydiyyatdan keçdiyi ölkə (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).

4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).

5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).

6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.

7. İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayışı (sənədlərin təsdiqi tender elanı tarixindən sonra notarial qaydada təsdiq olunması zəruridir).

8. İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.

9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki).

10. İddiaçının son 3(üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə məlumatlar, eləcə də analoji işlərdə təcrübəsi haqqında məlumat.

11. İddiaçının satınalma müqaviləsinin icrasını təmin etmək üçün qeyd edilən sahədə peşəkarlığının, iş təcrübəsinin, texniki və maliyyə imkanlarının, elektrik mühəndislərinin əmək müqavilələrinin, işçi qüvvəsinin və idarəetmə səriştəsinin olması vacibdir. Bununla yanaşı "PODRATÇI" son üç ildə elektrik stansiyalarının, xüsusilə 35kV-luq yarımstansiyaların, rəqəmsal şəbəkələrin qurulması, elektrik verilişi xətlərinin tikintisi və yenidənqurulması üçün hər birinin ümumi məbləği 3 milyon manatdan az olmamaq şərtilə ən azı 3 oxşar layihənin icrasını başa çatdırmış olmalı və təsdiqedici sənədləri təqdim etməlidir.

12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.

13. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).

14. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).

15. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun həyata keçiriləcəkdir (www.tender.gov.az).

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 20 sentyabr 2023-cü il saat 15.00-a , ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 28 sentyabr 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 29 sentyabr 2023-cü il saat 15.00-da Bakı , Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda "Azərişıq" ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***"Azərişıq" ASC-nin tender komissiyası***

SON SƏHİFƏ

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 175 (30291) 18 avqust 2023-cü il, cümə

veb-sayt: www.xalqqazeti.az

## İdman xəbərləri

### "Qarabağ" pley-offda




**"Qarabağ" futbol klubu avqustun 17-də UEFA Avropa Liqasının III təsnifat mərhələsində cavab oyununu keçirib.**

Qurban Qurbanovun baş məşqçi olduğu komanda Finlandiyada HİK-in qonağı olub. "Bolt Arena"da keçirilən qarşılaşmanı Fransadan olan FIFA referisi Villi Delajod idarə edib.

İlk oyunda olduğu kimi, bu matçda da Azərbaycan təmsilçisi 2:1 hesabı ilə qalib gəlib.

Qeyd edək ki, "Qarabağ" növbəti raundda Sloveniya çempionu "Olimpiya" ilə mübarizə aparacaq.

### "Neftçi" avrokubokla vidalaşıb

**İstanbulda "Neftçi" ilə Türkiyənin "Beşiktaş" klubu arasında UEFA Konfrans Liqasının III təsnifat mərhələsinin cavab oyunu keçirilib.**

"Beşiktaş" stadionunda oynanılan görüşdə ilk qolun müəllifi 36-cı dəqiqədə Azərbaycan təmsilçisinin kapitanı Emin Mahmudov olub. 57-ci dəqiqədə Vensan Abubakar hesabı bərabərləşdirib - 1:1. 71-ci dəqiqədə meydan sahibləri Cekson Mulekanın qolu ilə hesabda önə keçiblər - 2:1.

Cavab matçında rəqibinə 1:2 hesabı ilə məğlub olan "Neftçi" avrokubokla vidalaşıb.

### Bir parataekvondoçumuz da qızıl medal qazanıb

**Avropa Paralimpiya çempionatında Azərbaycan komandası daha bir medal qazanıb.**



Parataekvondoçumuz Əbülfəz Abuzərli (80 kq, K44) yarışın qızıl medalına sahib olub. Bundan əvvəl taekvondoçularımız İmaməddin Xəlilov (70 kq, K44) qalib adını qazanıb. Röyalə Fətəliyeva (52 kq, K44) gümüş, Amin Şıxəliyev (63 kq, K44), Sabir Zeynalov (58 kq, K44) bürünc medala layiq görülüblər.

Cüdoçular isə çempionatı 2 qızıl, 3 gümüş və 2 bürünc medalla başa vurublar.

### Şahmat Olimpiadasında yeni bir qələbə



**Azərbaycan komandası Niderlandın Eyndhoven şəhərində keçirilən yeniyetmələrin Ümumdünya Şahmat Olimpiadasında 7-ci turda mübarizə aparıb.**

Heyətində Read Səmədov, Xaqan Əhməd, Cahandar Azadəliyev və Nərmin Abdinovanın mübarizə apardığı Azərbaycan millisi növbəti oyunda "Kanada 1" komandası ilə üz-üzə gəlib. Qarşılaşma yığmamızın 3:0 hesablı qələbəsi ilə başa çatıb. 7 turdan sonra 10 xalla Azərbaycan 5-ci sıradadır.

Yarışda 47 ölkədən 63 komanda mübarizə aparır.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

## Texnologiya yenilikləri



### Süni intellektlə yaradılan "təbəssümlər"

**"WhatsApp" süni intellektdən istifadə edərək fərdi stikerlər yaradır. Bunun üçün artıq beta versiyada sınaqlara başlanılıb. Xüsusi stikerlər sayəsində tətbiqin daha da əyləncəli olacağı gözlənilir.**

Yaratmaq istədiyiniz stiker haqqında mətni dəqiqləşdirməyiniz tələb olunur. Bunu "Stikerlər" tabındakı "Yarat" düyməsini sıxmaqla edə bilərsiniz. Bu stikerlərin süni intellekt tərəfindən yaradıldığına dair xüsusi imzası da olacaq. Beləliklə, istifadəçilər süni intellektlə birgə yaratdıqları stikerləri digərindən ayıra biləcəklər.

Hazırda sınaq mərhələsində olan funksiya tezliklə bütün istifadəçilər üçün əlçatan olacaq. Oxşar funksiyanın "Instagram" və "Messenger"də gələcəyi gözlənilir.

*F. HÜQUQQIZI, "Xalq qəzeti"*

### İnsanabənzər "beyin"li kompüter

**Kaliforniya Universitetinin alimləri kvant materiallarında neyronları və sinapsları təqlid edərək beyinə bənzəyən kompüter hazırlayıblar.**



Ən son yaradılan bu texnologiya süni intellekt erasında inqilab edə biləcək ən səmərəli proqramla təmin edilib. Tədqiqatçılar araşdırmaya başlayarkən meqa quantum kompüterlərində hədsiz enerji israfının qarşısını almağa yönəlmiş ardıcıl təcrübələr həyata keçiriblər. Nəticədə, "quantum"a yararlı proqram hazırlaya biliblər. Süni intellekt üzrə texniki mühəndislər bu iş üçün insan beynindən də nümunə kimi istifadə ediblər.

Kaliforniya Universitetinin professoru Robert Dynes bildirib: "Əslində, bu yenilik heç də insanın beyin funksiyalarını olduğu kimi əvəz eləmir. Üzərində işlədiyimiz üsul daha çox hibrid halda insan və robot xüsusiyyətlərini özündə cəmləşdirən mexanizmdir".

*F. SALMANOVA, "Xalq qəzeti"*

## Maraq dünyamız

### Sən demə...



- İnsan ürəyi həyatı boyu 182 milyon litr qan vurur.
- Qadınların ürəyi kişilərdən daha sürətli döyünür.
- İnsan bədənindəki qan damarlarının ümumi uzunluğu 100 min kilometrdir.
- Orqanizmdə 700-dək ferment var.
- Susuzluq hissi bədənin çəkisinin 1 faizinə bərabər su itkisi ilə yaranır. 5 faizdən çox su itkisi huşun itməsinə, 10 faizdən çoxu isə ölümə səbəb olur.
- Diş insan bədəninin özünü bərpa edə bilməyən yeganə orqanıdır.
- Bədəndəki bütün kalsiumun 99 faizi dişlərdədir.
- İnsan dodaqları barmaq uclarından yüz dəfələrlə həssasdır.
- Bakteriyaların yalnız 1 faizi insanlarda xəstəliyə səbəb olur. Bakteriyaların bədəndə ümumi çəkisi isə 2 kiloqramdır.
- Dünyada yaşayan insanların 7 faizi solaxaydır.
- Alma və bananı iyləmək arıqlamağa kömək edir.
- Yuxuların 90 faizi unudulur.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

### Yeni tibbi qolbaq

**Çində "Xiaomi" şirkətinin "Band 8 Pro fitness" bilək cihazının rəsmi təqdimatı keçirilib.Yenilik, sələfi ilə müqayisədə son texnologiya ilə təchiz edilmiş geniş funksiyaları olan təkmil qolbağıdır.**




Yeni qolbaq 480x336 piksel təsviri, 1,74 düymlük AMOLED ekranı və 60 Hs yeniləmə sürəti ilə əvvəlkindən 0,1 düym və 30 Hs üstündür.

"Xiaomi"nin bildirdiyinə görə, yenilik "Always-on Display" aktivləşdirilməklə 14 və ya 6 günə qədər bir yükləmə ilə işləyə bilir.

Yeni fitnes qolbağı ürək döyüntüsünün və qanın oksigenləşməsinin ölçülməsi üçün qabaqcıl optik sensor, həmçinin NFC çipi və məşq xəritəsinin yaradılması üçün GPS qəbuledicisi ilə təchiz edilib. İdman həvəskarları üçün qolbağın 150-dən çox məşq rejimi və 5 ATM-də suya davamlılığı var. Cihazın qalınlığı 9,9 mm, çəkisi isə 22,5 qramdır. Onun qiyməti 399 yuan, manatla 93 AZN-dir.

*Zülfiyyə QURBANƏLİQIZI, "Xalq qəzeti"*

### Türkiyə Liviyada hərbi baza yaradıbmı?

**Türkiyə Liviyanın Homs limanını 99 il müddətinə icarəyə götürüb və burada hərbi bazasını yerləşdirəcək. Bu barədə "TRT Haber" telekanalı məlumat yayıb. Bildirilib ki, bölgədə yaradılacaq hərbi bazada Türkiyənin milli pilotsuz uçuş aparatları (PUA) və hava hücumundan müdafiə sistemləri yerləşdiriləcək.**



Türkiyə Dəniz və Qlobal Strategiyalar Mərkəzi qeyd edib ki, icarəyə götürülmüş limanda hərbi bazanın yaradılması Türkiyənin dəniz ərazilərinin profilaktik mühafizəsini, eləcə də ticarət gəmilərinin təhlükəsizliyini təmin edəcək. Materialda həmçinin bildirilir ki, Türkiyə ilə Liviya arasında hərbi əməkdaşlığın yeni səviyyəyə yüksəlməsi çərçivəsində Vatiyə hərbi aviabazasının Türkiyənin istifadəsinə verilməsi də gündəmdədir.

Liviya Milli Birlik Hökumətinin rəsmi nümayəndəsi Məhəmməd Hamuda məlumatı təkzib edib. Onun sözlərinə görə, Liviyanın Homs limanının Türkiyə Müdafiə Nazirliyinə icarəyə verilməsi ilə bağlı yayılan xəbərlər reallığı əks etdirmir: "Bu doğru xəbər deyil".

Qeyd edək ki, 2019-cu ilin noyabrında Liviya Milli Birlik Hökuməti və Türkiyə iki ölkə arasında dəniz zonalarının delimitasiyasına dair anlaşma memorandumu imzalayıblar. Ötən il oktyabrın 3-də Liviya Milli Birlik Hökuməti Türkiyə ilə neft-qaz sektorunda 2 yeni anlaşma memorandumu bağlayıb. Bu sənədlərdən biri müştərək geoloji kəşfiyyat işlərinin aparılmasını nəzərdə tutur.

*P.ƏFƏNDİ, "Xalq qəzeti"*

## Sağlamlıq

### Qara qarağat – qada-bəlanı at

***Qara qarağat insan sağlamlığı üçün ən faydalı giləmeyvələrdən hesab olunur. Buna görə xalq təbabətində bu meyvədən bir çox xəstəliklərin müalicəsində istifadə edilir. Gün ərzində 15–20 ədəd yeməklə orqanizmin gündəlik C vitamininə olan tələbatını ödəmək olar. Çünki qarağat tərkibində olan C vitamininin zənginliyi ilə digər meyvələr arasında liderlik edir.***



Bununla yanaşı qarağat A, D, E, K, B qrup vitaminlərlə, sellüloz, pektin, üzvi turşular, kalium, kalsium, maqnezium, natrium, fosfor, dəmir, yod, kobalt, manqan, mis, molibden, ftor və sinklə zəngindir. Bu zəngin tərkibin faydaları da çoxdur.

1. Qarağatdan istifadə edənlərdə ürək-damar xəstəliklərinin yaranması ehtimalı azalır, arterial təzyiq normaya düşür, qanın tərkibi yaxşılaşır.
2. Qaraciyər və böyrək xəstəliklərinin sağalmasını sürətləndirir. Şəkərli diabetin inkişaf riski azalır. Ahıl yaşlı insanlarda əqli zəifləmə yavaşıyır.
3. Qara qarağat onkoloji xəstəliklərin profilaktikası üçün effektli vasitədir. Təbii antioksidant kimi iltihabi prosesləri, mövsümi soyuqdəymələri aradan götürür.
4. İmmuniteti gücləndirir, görmə qabiliyyətinə müsbət təsir edir.

Digər faydalı qida məhsulları kimi qara qarağatdan da qədərincə istifadə olunmalıdır. Həddən çox qəbulu qan laxtalanmasına səbəb ola bilər.

Qarağatın meyvəsindən, mürəbbəsindən, yarpaqlarından hazırlanmış dəmləmə və kompotdan vaxtaşırı istifadə etmək tövsiyə olunur.

*Z.HÜSEYNLİ, "Xalq qəzeti"*

## Proqnoz

### Bəzi yerlərdə yağış yağacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, avqustun 18-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacaq. Əsasən yağmursuz keçəcək. Lakin axşam yarımadanın bəzi yerlərində qısamüddətli yağış yağacağı ehtimalı var. Şimal küləyi əsəcək. Gecə 21-25°, gündüz 32-37° isti olacaq. Atmosfer təzyiqi normadan aşağı 758 mm civə sütunu , nisbi rütubət gecə 70-80 , gündüz 30-40 faiz olacaq. dəniz suyunun temperaturu: Şimal çimərliklərində: (Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zaqulba) 25-26°,Cənub çimərliklərində: (Türkan, Hövsan, Sahil, Şıx) 27-28° isti olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi dağlıq və dağətəyi rayonlarında arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 20-25°, gündüz 34-39°, dağlarda gecə 13-18°, gündüz 23-28° isti olacaq.

*Q. QASIMOV, "Xalq qəzeti"*

✓ **2020-ci il dekabrın 12-də Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən Məmmədov Tərlan Vidadi oğlunun adına verilmiş sığorta agenti fəaliyyəti üçün SA-0187 nömrəli lisenziya itdiyinə görə etibarsız sayılır.**

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının kollektivi Akademiyanın prorektoru Təhminə Tağızadəyə həyat yoldaşı

**ƏKBƏR ZEYNALOVUN**

vaxtsız vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Şirvan şəhərindən İlqar Abbasov Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin general-leytenantı İslam Ələkbərova qardaşı

**İSMAYIL ƏLƏKBƏROVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4857
SİFARİŞ 2064
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Tahir AYDINOĞLU

Çapa imzalanmışdır 00:00